№ 213 ISSN 1027-3875 15 yanvar 2008

KHAZAR VIEW

XƏZƏR XƏBƏR



ELMİ-KÜTLƏVİ, BƏDİİ-PUBLİSİSTİK TOPLU

www.khazar.org

ELMİ-KÜTLƏVİ,
BƏDİİ-PUBLİSİSTİK
TOPLU

1995-ci ilin
yanvarından ayda 2 dəfə çıxır

Təsisçi:
XƏZƏR UNİVERSİTƏSİ

Baş redaktor:
Hamlet İSAXANLI

Baş redaktor müavini:
Knyaz ASLAN

Məsul katib:
Cabir MƏMMƏDLİ

Redaksiya heyəti:
Camal MUSTAFAYEV
Tofiq ABASQULIYEV
Nurəddin RZAYEV
Cəmil HƏSƏNLİ
Bəhlul ABDULLA
Nizami CƏFƏROV
Əfqan ABDULLAYEV
İsmət ƏHMƏDOV

Rəssam:
Rafiq ƏBDÜLRƏHİMOV

Kompüter tərtibatçısı:
Zakir N. Yusifoğlu
Fotomüxbir:
Xeyrulla HACIYEV

Ünvanımız:
Bakı, Məhsəti küçəsi 11,
("Neftçilər" metrosunun yanı)
Faks: 498-93-79
Telefon: 421-79-16
421-10-93

Şəhadətnamə: 255
İndeks: 67178
Sifariş: 188
Tiraj: 3000

Müəlliflərlə
redaksiyanın mövqeyi
üst-üstə düşməyə bilər
Əlyazmalar geri qaytarılmır
Xəzər Universitəsi
mətbəəsində çap edilmişdir

SCIENTIFIC-POPULAR
LITERARY-PUBLICISTIC
COLLECTION

It has been publishing twice
a month since January, 1995

Founder:
KHAZAR UNIVERSITY

Editor-in-chief:
Hamlet ISAXANLI

Associate editor:
Knyaz ASLAN

Editorial assistant:
Jabir MAMMADLI

Editorial member:
Jamal MUSTAFAYEV
Tofiq ABASQULIYEV
Nuraddin RZAYEV
Jamil HASANLI
Bahlul ABDULLA
Nizami JAFAROV
Afgan ABDULLAYEV
İsmat AHMADOV

Design by:
Rafig ABDULRAHIMOV

Computer graphics:
Zakir N. Yusifoglu
Photoreporter:
Kheyrulla HACIYEV

Address:
11 Mahsati str., Baku,
(near the "Neftchilar" metro)
Fax: 498-93-79
Phone: 421-79-16
421-10-93

Certificate: 255
Index: 67178
Order: 188
Copies: 3000

The opinions of authors
and editors
could be independent
Manuscripts are not returned
Published by
Khazar University Press


OXUYUN


Bu nömrədə



Elmi Tədqiqatlara Dəstək Mərkəzi 4

Su içmək üçün 40 səbəb 8





Nanotexnologiya 11

"Sevil" operası 17



UŞAQ DÜNYASI 36



Elmi tədqiqatlara dəstək mərkəzi yaradıldı

Xəzər Universitetinin elmi əlaqələrinin genişləndirilməsi, araşdırmaların və nəşrlərin artması, tədqiqatların yerinə yetirilməsində gərək olan nəticələrə dair informasiyaların daimi genişlənməsi sahəsində görülən işlərin əlaqələndirilməsi və sistemləşdirilməsi məqsədi ilə bu ali təhsil ocağının rektoru, professor Hamlet İsaxanlının 1 yanvar 2008-ci il tarixli əmri əsasında Elmi Tədqiqatlara Dəstək Mərkəzi *(Research Support Center)* yaradılmışdır. Mərkəz universitetdə elmi araşdırmaların təşkili və intensivləşdirilməsi strategiyasını həyata keçirəcəkdir.

Universitetin dosenti, PhD İsmət Əhmədov mərkəzin direktoru təyin edilmişdir.

Elmi Tədqiqatlara Dəstək Mərkəzinin fəaliyyət dairəsinə bu məsələlər daxildir:

- Tədqiqat plan və mövzularının rəsmi qeydiyyatı, planların icrasına nəzarət;
- Universitet əməkdaşlarının elmi tədqiqat fəaliyyətlərini əks etdirən məlumat bankının yaradılması;
- Ölkədaxili və beynəlxalq tədqiqat mərkəzləri ilə işgüzar əlaqələrin yaradılması;
- Elmi konfrans və seminarların təşkilinə dəstək;
- Universitet kitabxanası ilə birgə tədqiqatların informasiya təminatı imkanlarının təhlili və təşkili;
- Jurnalların nəşrinə dəstək və nəzarət;
- Universitetin və onun əməkdaşlarının tədqiqat qrantlarının qeydiyyatı;
- Universitetdaxili qrant müsabiqələrinin təşkili.

"Ali təhsil ixtisasları üzrə mövcud vəziyyət və prespektivlər"

2008-ci il yanvarın 12-də Azərbaycan Prezidenti yanında Təhsil Komissiyasının növbəti iclası oldu. Komissiyanın üzvü, Xəzər Universitetinin rektoru, professor Hamlet İsaxanlı "Ali təhsil ixtisasları (proqramları) üzrə mövcud vəziyyət və prespektivlər" mövzusunda məruzə etdi.

Məruzə ətrafında geniş müzakirələr aparıldı.

Hüseyn Avni Karslıoğlu Xəzər Universitetində

2008-ci il yanvarın 14-də Türkiyə Cumhuriyyəti Səfirliyində Xəzər Universitetinin rektoru, professor Hamlet İsaxanlı səfir Hüseyn Avni Karslıoğlu ilə görüşdü.

Görüşdə Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında elm və təhsil əlaqələrinin inkişafı yolları müzakirə olundu.

"Son yeddi ildə ən fəal gənc elmi işçi"

2008-ci il yanvarın 15-də Xəzər Universitetinin rektoru, professor Hamlet İsaxanlının əmri ilə elmi tədqiqat işlərinin inkişafına kömək etmək və tədqiqatçıların marağını artırmaq məqsədi ilə "Son yeddi ildə (2001-2007) ən fəal gənc elmi işçi" və "Son yeddi ildə (2001-2007) ən fəal qadın elmi işçi" müsabiqəsi elan edildi. Müsabiqə fevralın 15-dək davam edəcək.

"Xəzər Xəbər"

ALİ MƏKTƏBLƏRDƏ İXTİSASLARIN SAYI AZALDILIR

1997-ci ildə Nazirlər Kabineti tərəfindən təsdiqlənmiş 515 ixtisasın sayı 147-ə endirilir

Ölkənin ali məktəblərində ixtisasların sayı azaldılacaq. Təhsil Nazirliyi Aparatının rəhbəri İlham Pirməmmədovun sözlərinə görə, bu addım prezident İlham Əliyevin "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin Avropa ali təhsil məkanına inteqrasiyası ilə bağlı bəzi tədbirlər haqqında" sərəncamının icrası ilə bağlı atılır. Sərəncamla müvafiq strukturlara tapşırılıb ki, ali təhsilin bakalavr pilləsində ixtisasların (proqramların) siyahısının YUNESKO-nun və digər beynəlxalq qurumların qəbul etdiyi sənədlərə uyğunlaşdırılmasını təmin etsin.

İlham Pirməmmədov deyib ki, 1997-ci ildə Azərbaycanın təhsil sistemində bakalavr pilləsi tətbiq olunanda Nazirlər Kabineti tərəfindən kadr hazırlayan ixtisasların siyahısı təsdiqlənib. Həmin siyahıda 515 ixtisas nəzərdə tutulub, lakin onların hamısı üzrə kadr hazırlanmır.

Hazırda Azərbaycanın ali məktəblərində 105 istiqamətə daxil olan 273 ixtisas üzrə kadrlar hazırlanır. İlham Pirməmmədovun dediyinə görə, bu, Azərbaycanda təhsil alan kadrlar üçün xarici ölkələrdə problem yaradır: "Azərbaycanda kadr hazırlanan ixtisasların bir çoxu YUNESKO və digər beynəlxalq qurumların qəbul etdiyi siyahı ilə uyğun gəlmir. Bu, vətəndaşlarımızın diplomlarının tanınması məsələsində də problemlər yaradır. Ona görə də Prezident Aparatında yaradılmış İşçi Qrupda bu məsələyə baxılıb. Artıq yeni siyahı hazırdır və tezliklə Nazirlər Kabinetinin qərarı ilə təsdiqlənəcək".

İlham Pirməmmədovun sözlərinə görə, yeni siyahıda 105 istiqamət üzrə cəmi 147 ixtisas təsdiq olunub. İqtisadiyyat, texnologiya, texnika və tibb sahəsində bir çox ixtisaslar yeni siyahıya salınmayıb: "Yeni siyahıda 80 ixtisas əvvəllər olduğu kimi saxlanılıb və onların yalnız standartlarında yeniliklər aparılacaq, digər 67 ixtisas isə yenidir".

Bir sıra ixtisaslar isə birləşdirilib. Artıq filoloq orta məktəbdə ədəbiyyat müəllimi ola bilməyəcək. İncəsənət sahəsində də ixtisasların sayı 40 faiz azalıb.

Qiymətləndirmə problemi

Ötən ay Təhsil Nazirliyinin "Qaynar xətt"inə 29 telefon zəngi daxil olub. Həmin zənglərdə şikayətçilərin adı qeyd olunsa da, onların 11-nin adını yanlış göstərdiyi aşkarlanıb. Təhsil Nazirliyi Aparatının rəhbəri İlham Pirməmmədovun verdiyi məlumata görə, 11 şikayət ali, 15-i ümumtəhsil məktəbi, 3-ü isə məktəbəqədər tərbiyə müəssisəsi ilə əlaqədardır. Şikayətlərdən 8-i ali məktəblərdə keçirilən qış-imtahan sessiyasına aiddir. İ.Pirməmmədov bu prosesdə valideyn və tələbələrin passivliyini, zənglərin anonim olduğunu və hətta bəzilərinin öz şikayətindən imtina etməsini də bildirib: "Hətta bəzi zənglərin ali məktəb rəhbərliyinə, həm də bizim yaxşı tanıdığımız müəllimlərə qarşı yönəldiyi aydın olub. İki fakt üzrə isə (AzDPU kimya fakültəsi və ADPA-nın tələbəsi) tələbələrə kömək göstərilib".

Ümumtəhsil məktəblərindən və məktəbəqədər tərbiyə müəssisələrindən daxil olan şikayətləri Təhsil Nazirliyi, Bakı şəhəri üzrə Təhsil İdarəsi və aidiyyatı olan rayon təhsil şöbələrinin əməkdaşları araşdırıb. Şikayətlərin əksəriyyəti isə məktəblərin istilik sistemindəki problemlərlə bağlı olub.

Kredit sistemi ölçü vahididir

Təhsil Nazirliyi Aparatının rəhbəri Azərbaycanın Boloniya sisteminə qoşulma prosesindən və ölkədə kredit sisteminin tətbiqindən də danışdı: "Kredit sistemi fənlərin mənimsənilməsinə ayrılan ölçü vahididir". 15 il əvvəl ikipilləli təhsil sisteminə keçidin nəticələrindən danışan nazir müavini qiymətləndirmədə olan problemlərə də toxundu. Problemin qarşısının alınmasında, tələbənin bu prosesdə bir subyekt olmasının təminində kredit sisteminin əvəzsiz rolu olacağını dedi.

Artıq bir neçə ali məktəbdə, ayrı-ayrı fakültələrdə tətbiq edilməyə başlayan kredit sistemi tələbəni daha savadlı kadr olmağa, müəllimi daim öz üzərində işləməyə məcbur edəcək: "Tələbə ali məktəbi bitirmək üçün 2000-2200 kredit toplamalıdır. Bu krediti nə vaxt toplasa, onda da diplom alacaq. İstedadlı tələbə bu krediti 3 il yarıma da toplaya bilər. Kredit sistemində akademik borcu olan fənni tələbə yenidən oxuyacaq".

Sınaq imtahanlarının nəticələri

Bu il 52 min şagird sınaq test imtahanı verəcək. Bakı, Gəncə, Sumqayıt, Əli Bayramlını əhatə edən məktəblərdə test imtahanlarının bir mərhələsi arxada qalıb. İkinci imtahan fevralın 24-də olacaq. İl ərzində dörd sınaq imtahanının nəticəsi və birillik qiymət nəzərə alınaraq, şagirdin attestat qiyməti müəyyən ediləcək. Bu sahədə də yenilik olduğunu deyən İ.Pirməmmədov indiyədək şagirdin qiymətinin bir imtahanın nəticəsindən asılı olduğunu vurğuladı. Bundan sonra isə nazirin göstərişilə 5 imtahanın nəticəsindən çıxan yekun qiymət müəyyənləşdiriləcək.

2 MİN 500 DOLLARLIQ MAŞIN



Yanvarın 10-da Hindistanda dəyəri 2 min 500 dollar olan avtomobilin təqdimetmə mərasimi keçirilib.

«Tata Nano» adlı avtomobili «Tata Motorz» konsernin sahibi Ratan Tata şəxsən təqdim edib.

Konsernin prezidenti qeyd edib ki, yeni beş yerlik avtomobil bütün təhlükəsizlik və ekoloji normalara cavab verir. Onun sözlərinə görə maşın həmçinin beynəlxalq standartlara da uyğundur. «Ona görə də onu xaricdə də satmağı planlaşdırırıq».

Mühərrik maşının arxa hissəsində yerləşir. İstehsala 2008-ci ildə başlanacaq. İllik 500 min «Tata Nano» buraxılması nəzərdə tutulur.

Avtomobilin uzunluğu 3,1, eni 1,5, hündürlüyü isə 1,6 metrdir. Mühərriki 33 at gücündədir.

TƏBİİ FƏLAKƏTLƏR 20 % ARTIB

Beynəlxalq Qızıl Xaç Cəmiyyəti təbii fəlakətlərin ənənəvi illik hesabatını açıqlayıb. Hesabatda son bir ildə təbii fəlakətlərin təxminən 20 faiz artdığı və il ərzində 500-dən artıq fəlakətin qeydə alındığı göstərilib.

İnsanların qarşılaşdığı təbiət hadisələrini qlobal istiləşmə ilə əlaqələndirən qurumun mütəxəssisləri 2004-cü illə müqayisədə belə problemlərin 70 faiz çoxaldığını bildiriblər. Statistikaya görə, 1997-2006-cı illər arasındakı 10 illik dövrdə fəlakət qurbanı olan insanların sayı 1 milyon 200 min nəfər olub. Bu isə 1987-1996-cı illər arasında təbii fəlakətlər nəticəsində ölənlərdən 2 dəfə çoxdur.


Son onillikdə fəlakətlərin sayı ötən onilliklə müqayisədə 60 faiz artıb. Fəlakətlərdən zərər çəkən insanların sayı isə 230 milyondan 270 milyona yüksəlib. Ümumiyyətlə, fəlakət vaxtı ən çox qadınlar, uşaqlar, yaşlılar və əlillər əziyyət çəkirlər və ən çox ziyan görən təbəqələr olurlar.

Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətinin baş katibi Markku Niskala belə insanların diqqətdən kənarda qaldığını, yardım görmədiklərini və bunun qəbuledilməz olduğunu deyir.



Hesabatda yer alan digər əsas məqam fəlakətlərdə ölənlər arasında qadınların üstünlük təşkil etmələridir. Məsələn, 2004-cü ildə Asiyada baş verən sunami fəlakətində ölən qadınların sayı kişilərdən üç dəfə çox olub. Buna səbəb kimi isə fəlakət vaxtı qadınların evdən çıxmaması göstərilir. Yaşlılar isə sürətli hərəkət edə bilmədikləri və təhlükə vaxtı tərk edildikləri üçün fəlakətin qurbanına çevrilirlər.

İKI ÜZLÜ TELEVIZOR



ABŞ-ın Las Veqas şəhərində keçirilən İstehlakçıların Elektronika Sərgisində "Sharp" firması son məhsulu olan iki üzlü televizoru nümayiş etdirib.

Televizorun LCD ekranına soldan və sağdan baxıldığı zaman iki fərqli görüntü görünür. Yeni aparat

imkan verir ki, eyni vaxtda iki nəfər bir ekrana baxaraq fərqli kanallar izləsin. Ancaq ekranı yaxından izləmək qeyri-mümkündür. Çünki bu vaxt görüntülər üst-üstə düşür və qarışır.

"Sharp" firmasının həll edə bilmədiyi digər problem səslə bağlıdır. Belə ki, şirkətin mütəxəssisləri iki fərqli səsin bir-birindən ayrılmasının yollarını axtarsalar da, buna çarə tapa bilməyiblər. Hazırda bu televizorun səsini yalnız qulaqlıqlarla dinləmək mümkündür.

Bu yeni texnologiyanın yaxın vaxtlarda evlərdə və maşınlarda istifadə edilməsi gözlənilir. Məsələn, avtomobildə sürücü yol xəritəsini izlədiyi vaxt digər sərnişin monitorda filmə baxa biləcək.

KOSMİK SƏRNİŞİN TƏYYARƏSİ



İngilis macərasevər iş adamı Ser Riçard Branson 2010-cu ildə kosmosa uçuşlara başlaması planlaşdırılan sərnişin təyyarəsinin təqdimat mərasimini keçirib. "Virgin" Şirkətlər Qrupunun sahibi Branson Nyu-Yorkda təşkil etdiyi mətbuat konfransında təyyarənin son formasını və dizaynını media nümayəndələrinə təqdim edib. O, kosmik nəqliyyat vasitəsinin inşasının Kaliforniyada davam etdiyini, təyyarənin 60 faizinin tamamlandığını və "SpaceShipTwo"nun test uçuşlarının iyun ayında keçirilməsi nəzərdə tutulduğunu bildirib. Kosmik turizmin böyük potensialının olduğunu söyləyən iş adamı sözügedən layihənin əhəmiyyətindən danışıb: "Əgər bu layihə baş tutsa, böyük yeniliyə imza atacağıq. Bu sahədə uğur qazanmaqla, özəl sektorun kosmik nəqliyyat sistemlərinə və kosmik texnologiyalara investisiya qoymasını təmin etmək olar".

2 pilot və 6 sərnişin tutumu olan təyyarənin artıq ilk müştəriləri də məlumdur. 200-ə yaxın kosmik səyahət həvəskarı arasında aktrisa Viktoria Prinsipal, məşhur fizik Stefan Havkinq və Hollandiya şahzadəsi Beatris də var. "XPrize" mükafatına layiq görülmüş "SpaceShipOne"nın dizaynı üzərində qurulan "SpaceShipTwo" təxminən 20 metr uzunluğundadır. Uçuşlar 2 saat sürəcək və turistlər 4,5 saat yerin cazibə qüvvəsinin olmadığı şəraitdə qalmaq imkanı əldə edəcəklər. Xatırladaq ki, səyahət üçün bir biletin qiyməti 200 min dollar nəzərdə tutulub.

4 MİN İLLİK MUMİYALAR

Çinin şimal-qərbində yerləşən qurumuş Lopnor gölündə 4 min il yaşı olan 100-ə yaxın mumiya tapılıb. Çinli alimlər tərəfindən tapılan mumiyalar öküz dərisinə bükülərək tabutun içərisinə qoyulub. Üstəlik, bu mumiyalara çürüməyə qarşı heç bir dərman vurulmayıb.


Xatırladaq ki, Çinin yaxın vaxtlara qədər nüvə sınaqları keçirdiyi Lopnor gölünə yağış çox az düşür (ildə 13 mm). Bundan başqa, göldə güclü buxarlanmalar baş verir. Bu isə cəsədlərin quruyaraq "salamat qalmasına" səbəb olur.

MUMİYALARIN SİRRİ AÇILDI

Qədim Misirdəki mumiyaların sirri açılıb. İngilis tarixçisi Heater Prinql fironları mumiyalayarkən beynini və daxili orqanlarını çıxardıqlarını, yerini samanla doldurduqlarını və 70 gün sodalı duzda saxladıqlarını bildirib.


Xatırladaq ki, Misirin məşhur fironlarından biri, II Ramzesin mumiyası 4500 ildir ki, olduğu kimi qalır.

ƏN BÖYÜK MİRVARİ



Sula arxipelaqında dünyanın ən böyük mirvarisi tapılıb. Oval şəklində olan bu mirvarinin uzunluğu 9, eni isə 6,5 sm-dir. Mirvariyə 25 min dollar qiymət qoyulub.

SU İÇMƏK ÜÇÜN 40 SƏBƏB



Yer kürəsinin 71 faizini, insan bədəninin isə təxminən dörddə üçünü təşkil edən su həyatımız üçün də çox vacibdir

Qısacası, su həyat mənbəyidir. İlboyu quraqlığın verdiyi qorxu ilə uşaqdan böyüyə – cəmiyyətin bütün təbəqələri olaraq necə həyəcan keçirdiyimizi və ürəkdən etdiyimiz yağış dualarını xatırlayaq. İlboyu susuzluq qorxusu ilə keçən günlərimizdən sonra yağan yağışları necə sevinclə qarşıladığımızı yada salaq.

Yer səthinin 71 faizini dənizlər, 25 faizini quru ərazilər təşkil edir. İnsan bədəninin 25 faizi qatı maddələrdən, 75 faizi isə sudan, mayedən ibarətdir. Beynimizin isə 85 faizi sudur.

Dünyanın yaranmasından öncə də su var idi və yaradılış tamamlandıqdan sonra da ilk həyat su ilə başladı.

Suyun həyatın ən əsas ünsürlərindən olduğunu bilirik. Sözügedən maddənin faydalarının gerçək mənada üzə çıxarılması istiqamətində görülən işlərin, aparılan araşdırmaların həmin gündən sonra sürətləndiyini bilirdiniz?

İranlı həkim Doktor Firudin Batmangeldj suyun bir çox xəstəliklərə dərman olduğunu, insanın səhhətini yaxşılaşdırdığını həbsxanada qarşılaşdığı bir hadisə nəticəsində öyrənib: "1979-cu il İran inqilabı dövründə mən siyasi məhbus kimi həbsxanada idim. Bir gün məhkumlardan birinin həbsxananın koridorunda mədə sancıları ilə çapaladığını gördüm. Məni görən kimi: "Mədəmdəki yara məni öldürür", - dedi. "Bu sancıları azaltmaq üçün nə etmisən?" - deyə soruşduğum zaman: - Üç ədəd "Tagamet" və bir şüşə antiasid qəbul etmişəm, amma bir təsiri olmadı, - söylədi". Doktor Batmangeldj əzab çəkən məhkuma qeyri-ixtiyari yardım etmək qərarına gəlir və ölümünün yaxınlaşdığını düşündüyü şəxsə iki stəkan su içirir. Amma bir müddət sonra gördüyü mənzərə onu təəccübləndirir. Məhkum çox keçməmiş ağrılardan azad olur. O gündən sonra Doktor Batmangeldj suyun şəfaverici təsiri üzərində çalışmalarına start verir. Həbsxanada olduğu 2 il yarım ərzində mədə xorası olan 3 mindən artıq xəstə məhkumu sağaldır. Təbii ki, dərman kimi yalnız sudan istifadə edir. Batmangeldjin azadlığa buraxılmaq vaxtı çatanda, o, həbsxana müdirindən xahiş edir ki, bir müddət də zindanda qalması üçün ona icazə versin: "Mən bir az da məhkum həyatı yaşamaq istəyirəm. Çünki araşdırmalarımın ən vacib mərhələsindəyəm. Bu qədər xəstəni bu şərtlərlə dünyanın heç bir yerində tapa bilmərəm".

Beləliklə, Doktor Batmangeldj bir müddət də könüllü həbsxana həyatı yaşayır və araşdırmalarını davam etdirir. Həkimin su ilə bağlı kəşfləri ilk olaraq İranian Medical Association (İran Tibb Assosiasiyası) tərəfindən yayımlanır.

"Xəstə deyil, susuzsunuz"

Doktor Batmangeldj "Xəstə deyil, susuzsunuz" kitabında bədənimizin tam 40 səbəbə görə suya ehtiyac duyduğunu açıqlayıb.

Həmin səbəblər bunlardır:

1. Heç bir canlı susuz yaşaya bilməz.

2. Susuzluq əvvəlcə bədənin funksiyalarını öz təsiri altına alır, sonra isə öldürməyə başlayır.

3. Su ən vacib enerji qaynağıdır.

4. Su bədənin hər hüceyrəsində elektrik və maqnit enerjisi istehsal edir, bizə güc verir.

5. Su hüceyrələrin daxilindəki maddələri bir-birinə bağlayan yapışdırıcıdır.

6. DNK-nın zədələnməsinin qarşısını alan su onun bərpa olunması mexanizminin daha

yaxşı fəaliyyətini də təmin edir. Beləliklə, yaranan anormal DNK-nın sayı da azalır.

7. İmmun sisteminin bütün mexanizmlərinin mərkəzi sayılan sümük iliyini "xərçəng" də daxil olmaqla müxtəlif xəstəliklərə qarşı gücləndirir.

8. Bütün qidaları, vitaminləri və mineralları parçalayan əsas vasitədir. Su bədəndəki qidaları kiçik hissələrə ayırır, həzm olunmasında və son metobolizma mərhələsində vacib rol oynayır.

9. Su qidalara enerji verir və parçalanan qidalar həzm prosesi zamanı bu enerjini bədənə ötürür. Susuz yeyilən yeməyin bədən üçün heç bir enerji dəyəri yoxdur.

10. Su qidalardakı lazımi maddələrin sorulmasını sürətləndirir.

11. Bütün vacib maddələrin bədənə yayılmasına yardımçı olur.

12. Ağ ciyərlərdə oksigen toplayan qırmızı qan hüceyrələrinin fəaliyyətini yaxşılaşdırır.

13. Hüceyrəyə çatan su o hüceyrəyə oksigen verir və tullantı qazların bədəndən kənarlaşdırılması üçün onları ağ ciyərə daşıyır.

14. Su bədənin müxtəlif bölgələrindən zəhərli tullantıları toplayır və onların xaric olunmaları üçün qara ciyərə və böyrəklərə daşıyır.

15. Su oynaq boşluqlarındakı əsas yağlayıcı maddədir, artrit və bel ağrılarının əmələ gəlməsinin qarşısını almaqda yardımçı olur.

16. Dehidrasiya (bədənin həddindən artıq su itirməsi) oynaqlar, böyrəklər, qaraciyər, beyin və dəridə zəhərli çöküntülərin toplanmasına gətirib çıxarır. Su isə bütün bunların qarşısını alır.

17. Su bağırsaqları ən yaxşı işlədən yağlayıcı vasitədir və qəbizin qarşısını alır.

18. İnfarktın və iflicin qarşısını alır.

19. Ürəkdə və beyin damarlarında laxtalanmanın qarşısını alır.

20. Bədənin soyutma (tərləmə) və isitmə (elektrik) sistemləri üçün əvəzolunmazdır.

21. Düşünmək başda olmaqla bütün beyin funksiyalarının normal işləməsi üçün bizə güc və elektrik enerjisi verir.

22. Uşaqlarda və gənclərdə diqqətsizlik probleminə müsbət təsir edir.

23. Səmərəli iş əmsalını artırır və diqqəti gücləndirir.

24. Su dünyadakı digər bütün içkilərdən daha rahat tapılır və heç bir ziyanı yoxdur.

25. Stress, həyəcan və depressiyanın azalmasına kömək edir.

26. Su yuxunu tənzimləyir.

27. Yorğunluğun aradan qaldırılmasına yardım edir və bizə gənclik enerjisi verir.

28. Üz dərisini yumşaldır və yaşlanmanın simptomlarının azalmasına kömək edir.

29. Gözlərə canlılıq və parlaqlıq verir.

30. Qlokomdan (göz xəstəliyi) qorunmağa yardımçı olur.

31. İlikdə qan hüceyrələrinin artmasını sürətləndirir, qan xərçənginin və lenfoöma xəstəliyinin qarşısının alınmasına kömək edir.

32. Su bədənin infeksiya və xərçəng hüceyrələrinin yayılmaq ehtimalı olan bölgələrində immun sistemini gücləndirir.

33. Qanı durulaşdırır və qan dövranı prosesində laxtalanmanın qarşısını alır.

34. Ürək döyüntüləri ilə birlikdə qanı duruldur, dalğalandırır və qan dövranı zamanı qatı maddələrin çökməsinə imkan vermir.

35. Su içdikdən sonra aclıq və susuzluq hisslərini ayırd etmək mümkündür.

36. Arıqlamağın ən doğru yolu su içməkdir. Rejimli şəkildə su için və pəhriz saxlamadan arıqlayın. Aclıq hiss etdiyiniz zaman çox yeməyin, amma susadığınız zaman doyunca su için.

37. Su hamiləlik zamanı ürək bulantılarını azaldır.

38. Zehni və bədən funksiyalarını bütünləşdirir. Qərar vermək və hədəfləri müəyyənləşdirmək bacarığını artırır.

39. Yaşlandıqca yaddaşın zəifləməsinin qarşısını alır. Parkinson, skeleroz və digər zehni xəstəliklərin əmələgəlmə ehtimalını azaldır.

40. Kofein, alkoqol və bəzi dərmanlardan asılılığın aradan qaldırılmasına yardımçı olur.

Bir stəkan suyun faydaları bunlardır.

Suyun yuxarıda sadalanan faydalarını oxuduğumuz zaman Qurani-Kərimdə yer alan ayətin mənasını daha gözəl anlayırıq: *"Canlı olan hər şeyi sudan yaratdıq. Onlar hələ də inanmırlar?"*

(Ənbiya, 30)

150 cildlik "Dünya ədəbiyyatı kitabxanası"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 30 dekabr 2007-ci ildə "Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin Azərbaycan dilində nəşri nəzərdə tutulan əsərlərinin siyahısının təsdiq edilməsi haqqında" sərəncam imzalamışdır. Sərəncamda "Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin əsərlərinin Azərbaycan dilində nəşr edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 24 avqust tarixli 2354 nömrəli sərəncamına uyğun olaraq 150 cildlik "Dünya ədəbiyyatı kitabxanası"na daxil olunmuş əsərlərin siyahısı təsdiq edilmişdir.

Azərbaycan Milli Elmlər Akademiyasına tapşırılmışdır ki, təsdiq olunmuş siyahıya daxil edilmiş əsərlərin tərcüməsi, tərtibatı və çapa hazırlanması barədə təkliflərini bir ay müddətində Azərbaycan Respublikası Prezidentinin İcra Aparatına təqdim etsin.

"İlin konserti"

Tarzən Ramiz Quliyev və dirijor Eyyub Quliyevin Polşadakı son konsertləri "İlin konserti" adına layiq görülmüşdür

Polşanın nüfuzlu "Belostok Viborca" qəzeti 2007-ci ildə ölkədə təşkil edilmiş ən əhəmiyyətli mədəni tədbirlər üzrə sorğu keçirmişdir.

Sorğunun nəticələrinə görə, görkəmli Azərbaycan musiqiçisi, tarzən, professor Ramiz Quliyev və oğlu, dirijor Eyyub Quliyevin Polşadakı son konsertləri "İlin konserti" adına layiq görülmüşdür.

Həmin konsertdə milli musiqi alətimiz tar üçün yazılmış əsərlər Polşada ilk dəfə səsləndirilmişdir.

Tədbirdə Ramiz Quliyev Polşanın məşhur Podlaziya Filarmonik Orkestrinin müşayiəti ilə H.Xanməmmədov və H.Rzayevin əsərlərini, eləcə də muğamlarımızı ifa etmişdir. Orkestrə beynəlxalq müsabiqələr laureatı Eyyub Quliyev dirijorluq etmişdir. Konsertdə R.Ştrausun "Don Juan" və P.Çaykovskinin "İtalyan kapriççiosu" əsərləri də səslənmişdir.

Türk dövlətlərinin ortaq telekanalı

"Türk dövlətlərinin ortaq telekanalının fəaliyyətə başlaması ilə bağlı müəyyən müzakirələr aparılıb"

Bu eksklüziv açıqlamanı millət vəkili, Azərbaycanda Atatürk Mərkəzinin direktoru Nizami Cəfərov verib: "Prinsip etibarilə belə bir ideyanın artıq real olduğunu deyə bilərik. Uzun müzakirələrdən sonra bu telekanalın iş imkanları, əsas mövzuları, dili ilə bağlı məsələlər artıq müəyyənləşib. Praktik olaraq belə bir kanalın açılmasına heç kim etiraz etmir. Kanalın maliyyə məsələsini türk dövlətlərindən biri və ya hansısa beynəlxalq şirkət öz üzərinə götürəndən sonra bu məsələ tam konkretləşəcək".

Nizami Cəfərov bildirib ki, türk xalqlarının inteqrasiyası son vaxtlar daha da sürətlənib: "Ən asan yaxınlaşma yolu mədəniyyət vasitəsilə baş tutur. Bu, elə bir sahədir ki, burda diplomatik problemlər ortaya çıxmır. Məncə, bu kanalın fəaliyyətə başlaması məsələsi bu il reallaşacaq".

Yeni kanalda türk dünyasının mədəniyyətinə və tarixinə xüsusi yer ayıracağını, ortaq mədəniyyət texnologiyalarının təqdim olunacağını və müasir mədəniyyətin təbliğ ediləcəyini deyən N.Cəfərov kanalın Türkiyə türkcəsinə yaxın olan ortaq türkcədə efirə çıxacağını da bildirib: "Bu kanalı iki formada maliyyələşdirmək olar. Kanal üçün hər bir türk dövlətinin büdcəsindən müəyyən miqdarda maliyyə ayrıla bilər və ya türk dünyasının gələcəyini düşünən bir beynəlxalq şirkət bu vəsaiti ödəyə bilər". Millət vəkili telekanalın əsas ofisinin Türkiyənin İstanbul şəhərində yerləşməsinin daha məqsədəuyğun olduğunu düşündüklərini də söyləyib. Amma televiziyanın bütün türk dövlətlərində ofislərinin olması da planlaşdırılıb.

Kanalın baş direktoru olacağı söylənilən telejurnalist Mehriban Ələkbərzadə isə artıq kadrlar cəlb edilməsi ilə bağlı xəbəri təsdiqləməyib.

Azərbaycan Milli Televiziya və Radio Şurasının sədri Nuşirəvan Məhərrəmli isə ortaq mədəniyyət televiziyası ilə bağlı hər hansı müraciətin və müzakirənin aparılmadığını vurğulayıb.

İsmət Əhmədov,
Xəzər Universiteti Elmi Tədqiqatlara Dəstək Mərkəzinin direktoru

NANOTEXNOLOGİYA

XXI əsrin texnologiyası



Keçən əsrin 90-cı illərindən başlayaraq fizika, kimya və mühəndislik elmlərinin nailiyyətlərinə əsaslanan yeni bir texnologiya – nanotexnologiya intensiv inkişaf edərək XXI əsrin texnologiyası statusunu qazanmaq əzmindədir. Nanotexnologiya nədir? Amerika Milli Nanotexnologiya Təşəbbüsü *(The National Nanotechnology Initiative)* mərkəzinin gəldiyi rəyə görə bu texnologiya:

1. Təqribən 1–100 nm (1 nm=metrin milyardda biri) miqyasında, molekul və ya makromolekullar və atom səviyyəsində araşdırmaların və texnoloji proseslərin inkişaf etdirilməsidir;
2. Atom və molekullar səviyyəsində, tamamilə yeni fiziki və kimyəvi keyfiyyətlərə malik olan strukturların, sistem və qurğuların yaradılması və tətbiq edilməsidir;
3. Atom səviyyəsində baş verən proseslərə nəzarətin və manipulyasiyanın həyata keçirilməsidir.


Nanotexnologiya – atom və molekullarla manipulyasiya edərək yeni keyfiyyətli materialların alınmasını və bu materiallardan istifadə edərək nanoölçülü maşın və mexanizmlərin, robotların, kompüter çiplərinin, elektronika avadanlıqlarının, optik çihazların, sensorların, ətraf mühitin kimyəvi və fiziki təmizləyicilərinin, canlı orqanizmlərə maddələrin, o cümlədən dərman preparatlarının daşınmasını həyata keçirən qurğuların yaradılmasını nəzərdə tutur. Nanotexnologiya sadəcə nanoölçülü hissəciklərin, materialların, məhsulların texnologiyası deyil. Bu texnologiya kimya və materiallar, yeyinti və biotexnologiya, elektronika və materiallar sənayesini, elmin və texnikanın bir çox sahələrini əhatə edən son dərəcə incə bir texnologiyadır. İnsan fəaliyyətinin elə bir sahəsi yoxdur ki, orada nanaotexnologiyanın nailiyyətlərindən istifadə edilməsin və ya edilməsi nəzərdə tutulmasın. Nanotexnologiyanın imkanları həddən artıq genişdir. Odur ki, bu texnologiya əsasında yaradılan məhsulların miqdarı və növləri çox böyük sürətlə artmaqdadır.

Nanotexnologiyada araşdırmalar fizika və kimya elminin bazasına əsaslanaraq aparılır. Bu elmlərin metodlarını və naliyyətlərini tətbiq etməklə atom və molekullarla manipulyasiya edərək çox kiçik ölçülü, yüksək dərəcədə aktiv materiallar alırlar. Ənənəvi sənaye texnologiyalarında tərkibindən lazım olmayan maddələri təmizləməklə, istənilən xammaldan verilmiş struktura uyğun material və qurğular hazırlanır. Bu prosesdə maksimum bir mikron tərtibində ölçüsü olan materiallar hazırlamaq mümkündür. Lakin nanotexnologiya ilə hazırlanmış material və strukturların həm ölçüsünu və həm də fiziki – kimyəvi xaraketristikalarını əvvəlcədən proqramlaşdırmaqla almaq olur.

Hazırda dünyanın bir çox ölkələri (xüsusilə, ABŞ, Yaponiya, Çin, Avropa birliyi ölkələri) bu texnologiyanın böyük imkanlara malik olduğunu anlayaraq bu sahəyə küllü miqdarda maddi vəsait cəlb etməklə xeyli nailiyyətlər qazanmışlar. Onu qeyd etmək kifayətdir ki, bütün dünya üzrə, nanotexnologiya sahəsində son on ildə alınan patentlərin sayı və eləcə də bu sahəyə ayrılan pul vəsaitlərinin miqdarı eksponensial qanunla artır. İndi insan fəaliyyətinin elə bir sahəsi yoxdur ki, orada nanotexnologiyanı tətbiq etmək mümkün olmasın. Nanomateriallar yüksək keyfiyyətli paltar, geyim əşyaları, inşaat materialları, qablaşdırma və daşınma avadanlıqları, çox möhkəm metal məmulatları, keyfiyyətli kosmetika, proqramlaşdırılmış qida məhsulları, yüksək dərəcədə aktiv bioloji və kimyəvi katalizatorlar, dərman preparatlarının daşıyıcıları və nəhayət tibbi əhəmiyyətli sensor maddələr deməkdir.


Dünyanın yaranmasından (Biq-Bang nəzəriyyəsinə görə) 300 000 il sonra kainat yalnız nanohissəciklərdən ibarət olmuşdur. Milyard illər ərzində bu nanohissəciklər fiziki qüvvələrin təsiri altında bir-biri ilə birləşib – dağılaraq indi movcud olan və ya bizə məlum olmayan materiyanın hədsiz sayda formalarını əmələ gətirmişlər - sözün həqiqi mənasında kainat nanotexnologiya ilə məşğul olmuşdur. Bu dövrlərdə nə baş verdiyini indi alimlər nanotexnologiyanın vasitəsilə başa düşməyə cəhd edirlər.

Nano elmi və nanotexnologiyanın imkanları haqqında ilk dəfə dünyaşöhrətli fizik, Nobel mükafatı laureatı Riçard Feynman Kaliforniya Texnologiya İnstitutunda 1959-cu ildə oxuduğu mühazirədə söyləmişdir. O, atom və molekul səviyyəsində baş verən proseslərin məkanında həddən artıq geniş və külli miqdarda boş yerlərin olduğunu deyirdi. Biz həmin yerlərə daxil ola bilsək, atom və molekulları həmin boş yerlərdə istədiyimiz kimi düzə bilsək imkanları qeyri-məhdud olan bir texnologiyanın əsasını qoya bilərik. Bu ideyanı reallaşdırmaq keçən əsrin 80-ci illərində atom qüvvət və skayner mikros-koplarının kəşfindən sonra mümkün oldu. İndi alimlərin əlində atomlarla manipulyasiya etməyə imkan verən elə texnologiyalar (sinxotron şüalanma, spektroskopiyanın müxtəlif növləri və s.) var ki, onların köməyilə istənilən xassəyə malik maddə, informasiya bankı yarada, yazı yaza bilərik.



Ksenon atomları ilə yazılan ilk söz. Bu texnologiya ilə 1sm² sahədə 48 milyon kitab yazmaq olar.

Nanotexnologiya terminini 1974-cü ildə ilk dəfə Tokiyo Universitetinin professoru Norio Taniguchi təklif etmişdir. Beynəlxalq elm aləmi tərəfindən qəbul edilmiş bu termin indi dünyada ən çox işlədilən məfhumlardan biridir. *Eric Drexler* 1986-ci ildə atomlarla manupulyasiya edərək yeni tip maddələrin istehsalından bəhs edən kitab



yazmışdı. Bu kitab nanotexnologiyadan bəhs edən ilk kitab idi.

Nanotexnologiya ilə alınan materialların fiziki və kimyəvi xaraketristikaları qeyri-adi dərəcədə adi texnologiya ilə alınan materiallardan fərqlənir. Məsələn, qızıl nanohissəciklərindən düzəldilmiş qızıl materialının rəngi bizim adət etdiyimiz qızıl rəngindən tamamilə fərqlənir və tünd qırmızı rəngə çalır. Karbon atomları ilə aparılan nanotexnoloji proseslərdə alınan nanoborucuq 6 dəfə poladdan yüngül olmasına baxmayaraq elə o qədər də ondan möhkəmdir. Bu nanoborucuqlardan, silisium və eləcə də almazdan alınan nanoliflərin möhkəmliyi o qədər böyükdür ki, bu sapın bir dənəsi ilə fili asmaq olur, min dənəsi ilə çay üzərindən asma körpü düzəltmək olar.



Nanohissəciklərdən hazırlanan geyim paltarları qırışmır, isti olur, çirklənmir və çox davamlıdır



Nanomaterialdan düzəldilmiş günəş eynəyi insan sağlamlığı üçün heç bir problem yaratmır

Nanotexnologiyanın təsir sahələri çox genişdir, demək olar ki, sərhədsizdir. Bu texnologiya ilə hazırda insan fəaliyyətinin bütün sahələrində, o cümlədən materiallar və emal sənayesində, elektronika və kompüter texnologiyasında, tibb və sağlamlıq, ətraf mühit və enerji sahələrində, biotexnologiya və kənd təsərrüfatı, aeronavtika və kosmosun öyrənilməsində, hərbi və milli təhlükəsizlik, nəqliyyat və qablaşdırma sənayesində, metralogiya və nəzarət xidmətləri sahələrində mühüm nəticələr alınmışdır. Nanotexnologiyanın nailiyyətləri həm də elmin, təhsilin XXI əsrdə inkişafına güclü təkan verəcəkdir.

İndi bəşəriyyətin əsas problemlərindən biri ətraf mühitin qorunması və sağlam, stabil insan inkişafının əldə olunmasıdır. Dünyada 525 milyon kiçik fermer təsərrüfatında çalışan 2,5 milyard əhali təmiz texnologiyadan, təmiz içməli sudan, elementar sanitariyadan və təhlükəsiz suvarma sistemlərindən məhrumdurlar. Dənizdə və sahil zonalarında suda həll olunmuş oksigenin çatışmamazlığı dənizin fauna və florasında mühüm dəyişikliklər yaradır. Oksigenin miqdarı 2mg/l –dən az olduqda canlılar və fitoplanktonların yaşaması çətinləşir.

Son illəri nanotexnologiyanın ətraf mühitin qorunması üçün əldə etdiyi nailiyyətlərdən bəzi nümunələri göstərmək kifayətdir ki, bu sahənin vacibliyi hamıda inam yaratsın.

• Massaçuset Texnologiya İnstitutunun alimləri həm hidrofob və həm də hidrofil xassəyə malik SiO – polimer nanohissəciklərindən təşkil olunmuş nazik təbəqə yaratmışlar. Onlar bu nanomaterialla səhra zonalarında havada olan nəmliyi suya çevirmək, bakteriyalardan təmizlənmiş su almaq istəyirlər. Bu nanomaterialla duman və çəni böyük sürətlə suya çevirmək mümkündür.

• Kanadanın Qərbi Ontario Universitetinin alimləri çirklənmiş zonalarda artezian sularının təmizlənməsi üçün nanomaterialları torpağa hopduraraq yeraltı sularda etan və butan kimi kimyəvi maddələri təmizləmək əzmindədirlər.

• İsrail və Amerika alimləri birlikdə nano ölçülü deşikləri olan, polimer əsaslı ultra-filtirasiya qabiliyyətinə malik membran təbəqələri almağa nail olmuşlar. Onların yaratdığı bu təbəqələr bioloji çirkləməyə davamlı, antimikrob xassəli, bioloji toksik maddələr üçün sensor rolunu oynayan, yeraltı və yerüstü sulardan onları kənarlaşdıran materiallardır.

• Dəniz suyunun şirinləşdirilməsi texnologiyası indiyə qədər çox baha başa gələn bir texnologiyadır. *Lawrence Livermore* alimləri karbon nanoborucuqlardan istifadə edərək dəniz suyundan, indiki texnologiyadan iki dəfə ucuz başa gələn, texnologiya ilə içməli su almağa cəhd edirlər.

• Yapon alimlərinin yaratdığı mikro-nanoqovucuqlar texnologiyasi ilə Şarp Korporasiyası çirkab sularından azotu 90% qədər çıxara bilən zavod tikməyə nail olmuşlar. Əvvəllər çox baha başa gələn üsullarla azotun çirkab sularında təmizlənməsi bu üsulla dəfələrlə ucuz başa gəlir.

• Amerikanın Şimaliqərb Sakit okean Milli Laboratoriyası (Pacific Ocean Northwest National Laboratory) alimləri zavodların çirkab sularından civəni və digər toksik elementləri 99,9% təmizləyən SAMMS (*Self-Assambled Monolayers on Mesoporous Supports*) nanomatrialı almışlar. Onlar bu materialın qalay, xrom, radionukleotidlər və digər toksik metallar üçun də həssas formalarını alacaqlarını söyləyirlər.

• Cənubi Koreyanın *Pohang University of Science and Technology* alimləri Amerikanın Massaçuset Universitetinin alimləri ilə birlikdə içməli sudan virusları təmizləyən ikiqat nano ölçülü deşikləri olan membran təbəqələri almağa nail olmuşlar. Bu nano materialin hemodializ zamanı da tətbiq olunacağını söyləyirlər.

• Dünyanın ən böyük qızıl mədni olan Cənubi Afrika Respublikası $70 milyon vəsait xərcləyərək qızıl nanohissəciklərindən şaxtalarda zəhərli qazların təmizlənməsi texnologiyasını hazırlamaq ərəfəsindədirlər.

• Avstraliyalı alimlər qarğıdalı nişastası tərkibli polimer materialdan ətraf mühit üçün çox əlverişli plastik qablar düzəltmişlər. Belə plastik qabların tullantıları bir müddətdən sonra öz-özünə əriyərək heç bir çirklənməyə səbəb olmur.

• Yarımkerici nanokristallardan hazırlanmış "süni yarpaq"la havada olan karbon qazını çox yaxşı təmizləmək olur. Bununla alimlər istixana effektini azaltmaq istəyirlər.

• Müəyyən edilmişdir ki, nanomayenin (bərk nanohissəciklərin mayedə suspenziyası)

kontakt istilik keçiriciliyi on dəfələrlə yüksəkdir. Nanomayedən istifadə edərək texnoloqlar ekoloji cəhətdən təhlükəsiz, ucuz, yüngül termometrlər düzəltmək istəyirlər. Bu termometlərlə torpağın, suyun və bərk cisimlərin temperaturunu çox dəqiqliklə ölçmək olur.

• Meşə materiallarını əvəz edən nanomateriallar ABŞ-ın meşə sənayesinə il ərzində 240 milyon dollarlıq materiala qənaət etməyə imkan verir.

• Tokionun Mitsui Chemicals firması alfa-olefin əsasli nano-struktura əsaslanan NOTİO adli yeni material yaratmışlar. Bu nanomaterial, şəffaf, çox elastik, yüngül və istilik keçirməyən materialdır. Ondan qablaşdırma sənayesində istifadə etmək olar.

• Metalları korreziyadan qorumaq üçün istifadə edilən Fe-fosfatı əvəz edən Bonderite NT keramik nanomaterialdan istifadə etməklə metalların davamlılığını dəfələrlə artırmaq olar.

• NanoCeram® aktıv komponenti AlOOH olan alüminium liflərdir. Bu liflərin diametri 2 nm tərtibindədir. Liflər yüksək electropozitiv aktivliyə malik olduğundan onlardan istifadə edərək həm suda və həm də havada olan bakteriyaları, virusları təmizləmək olur.

• TiO_2 yaxşı fotokatalitik xassəyə malikdir. UB şüaların təsiri zamanı o havada olan üzvü çirkləndiriciləri zərərsizləşdidr, bakteriyaları, virusları məhv edir. Onun bu xüsusiyyətindən istifadə edərək torpaqda, suda və havada olan çirkləndiriciləri təmizləyirlər.


• Aberdin Universitetinin *(University of Aberdeen)* alimləri günəş şüalarının köməyi ilə çirkli suyu təmizləmək və eyni zamanda elektrik almaq üçün yeni texnologiya hazırlamışlar.

Amerikanın Rays Universitetinin *(Rice University's Center for Biological and Environmental Nanotechnology)* alimləri Nanotexnologiyaya əsaslanan bu texnologiyanı yaratmışlar.

• İçməli suların tərkibində Arsenin miqdarının artması (xüsusilə Hindistanda, Banqladeşdə) artıq qlobal problemə çevrilmişdir. 'Nanorust' Arseni içməli sudan təmizləyir.

•TərkibindəTitanium dioksid (TiO_2) nanohissəciyi olan rənglərlə binaları rənglədikdə binalar







havada olan çirkli qazları təmizləyir. Belə ki, TiO_2 nanohissəcikləri UB şüaların təsiri zamanı üzvü və qeyri üzvü çirkləndiriciləri parçalayır və yağışlar onları yuyub aparır.

•Minik maşınları üçün indi nanohissəcik tərkibli elə rənglər alırlar ki, bu rənglər su buraxmır, çirklənmir, cızılmır, parıldayır, günün müxtəlif vaxtlarında maşın müxtəlif rəngdə görünür.

İNTERNETDƏ İNGİLİS DİLİ LİDERDİR

Dünya əhalisinin yalnız 16 %-i internet istifadəçisidir

ABŞ-da internet sahəsində fəaliyyət göstərən şirkətlərdən birinin hazırladığı hesabata görə dünya əhalisinin 16 %-i, yəni 1milyard 114 milyon 275 min nəfəri internet istifadəçisidir.

İnternet istifadəçilərinin sayı son bir ildə 208 % artmışdır, beləliklə, dünyada internet istifadəçilərinin 35,8 %-i Asiyada, 28,3 %-i Avropada, 20,9 %-i Şimali Amerikada, 8,7 %-i Cənubi Amerikada, 3 %-i Afrikada, 1,7 %-i Orta Şərqdə, 1,6 %-i Avstraliyada yaşayır.

Ölkələr üzrə ən çox internet istifadəçilərinin sayına görə 1-ci yeri ABŞ tutur. Bu ölkədə internet istifadəçilərinin sayı 211 milyon nəfərdir.


İnternet və informasiya sektorunun yeni mərkəzi hesab olunan Çin isə 137 milyon istifadəçi ilə 2-ci yeri tutur.

3-cü yeri Yaponiya (86,3 milyon nəfər), 4-cü yeri Almaniya (50,4 milyon), 5-ci yeri Hindistan (40 milyon), 6-ci yeri Braziliya (39 milyon), 7-ci yeri Birləşmiş Krallıq (38 milyon), 8-ci yeri Koreya (34 milyon), 9-cu yeri Fransa (33 milyon), nəhayət, 10-cu yeri İtaliya (31 milyon) tutur.

Bu siyahıda Azərbaycan 806 min istifadəçi ilə 70-ci yeri tutduğu halda, Ermənistan 150 min istifadəçi ilə 112-ci yerdədir. Qonşu Rusiya 28 milyon istifadəçi ilə 11-ci yeri, Türkiyə 16 milyonla 16-cı yeri, İran 7,7 milyonla 29-cu yeri tutur.


İnternet istifadəçilərinin 29 %-i ingilisdilli məlumatlardan istifadə edərək internetdə bu dilin hegemonluğunu qoruyub saxlasalar da, son zamanlar Çin dilindən istifadə çox sürətlə inkişaf etməkdədir. İngilis və Çin dillərindən sonra internetdə ən çox istifadə edilən dillər ispan, yapon, alman, fransız, portuqal, italyan və ərəb dilləridir.

Göründüyü kimi, Rusiyada və digər MDB ölkələrində əsasən rus dilindən istifadə edilsə də hələlik rus dili ön sıralara keçə bilməyib.



Sərxan MƏMMƏDOV,
Tələbə Məclisinin Prezidenti

MÜSTƏQİLLİK AKTINA BƏRABƏR HADİSƏ



NATO sıx əməkdaşlıq etmək istədiyi ölkələrdə demokratiyanın vəziyyətinə çox həssasdır

Gürcüstandakı prezident seçkisi, bu seçki ətrafındakı müzakirələr və nəhayət hakimiyyət məsələsi regional geopolitika üçün mühüm əhəmiyyət kəsb edən digər hadisəni-ölkənin NATO-ya üzvlüyü ilə bağlı keçirilmiş referendumu bir qədər kölgədə qoydu. Əslində isə çəkisinə görə bu hadisə Müstəqillik Aktı qədər mühüm əhəmiyyət kəsb edirdi. Müstəqillik Aktı ölkənin suverenliyini təsbit edirdisə bu referendum Gürcüstanın inkişaf təmayülünü müəyyənləşdirirdi. İndi prezident M.Saakaşvili ilə bağlı çox mübahisə etmək olar, onun «qızılgül inqilabının» prinsiplərinə nə qədər sadiq qalması haqqında müxtəlif fikirlər söyləmək olar. Amma danılmaz həqiqət budur ki, Saakaşvili ölkədəki Qərb yönümlü siyasətə dönməz xarakter vermək üçün seçki gününə NATO ilə bağlı sorğunu da təyin etdi. Saakaşviliinin seçilməyəcəyi təqdirdə yeni prezident də fakt qarşısında qalaraq Gürcüstan-NATO münasibətlərin inkişaf etdirməli olacaqdı.

Bu, həm də Rusiyaya tutarlı cavab idi. Rusiya qoşunları Gürcüstandan çıxarılandan sonra ölkə daha bir geosiyasi addım atdı və bununla da öz niyyətlərinin ötəri və mövsümi xarakter daşımadığını, NATO ilə bağlı planlarının deklarativ məzmun kəsb etmədiyini sübut etdi. İndi elə bir vaxtdır ki, çoxları formal olaraq özlərinin NATO məkanına inteqrasiya olunmaq istədiyini bəyan edir, amma əməli addımlar atılmır.

Bu hadisənin Gürcüstan və bölgə üçün əhəmiyyətindən çox danışmaq olar.

Aydındır ki, gürcülərin NATO-ya «hə» deməsi hələ məsələnin tam şəkildə həll olunması demək deyil, NATO-ya üzvlük uzun çəkən mürəkkəb prosesdir. Qarşıda çətin prosedurlar dayanır. Üstəlik, Gürcüstan daha bir neçə sınaqdan keçməlidir. Prezident seçkilərinin nəticələrinin qəbul olunması ilə bağlı problemlər aradan qaldırılmalıdır. İndi mürəkkəb vəziyyət yaranıb.

Amma danılmaz həqiqət budur ki, Saakaşvili ölkədəki Qərb yönümlü siyasətə dönməz xarakter vermək üçün seçki gününə NATO ilə bağlı sorğunu da təyin etdi

Seçkidən sonra Saakaşvili daha əvvəlki tək güclü, müxalifət isə zəif deyil. Güman ki, bu seçkidən sonra Saakaşvilinin siyasətində müəyyən sərhədlər özünü hiss etdirəcək.

Prezident seçkisində bir o qədər də tanınmayan liderlərlə iştirak edən müxalifət güman ki, qarşıdakı parlament seçkilərində daha güclü nəticələr nümayiş etdirəcək.

Əgər parlament seçkilərinə qədər sabitliyi qoruyub saxlamaq mümkün olsa bu il sayca ikinci seçki olan parlament seçkiləri daha bir sınaq olacaq. Məsələ bundadır ki, NATO sıx əməkdaşlıq etmək istədiyi ölkələrdə demokratiyanın vəziyyətinə çox həssasdır. Seçkidən qabaq Saakaşvili fövqəladə vəziyyət tətbiq edərkən ilk etiraz elə NATO-dan daxil olmuşdu.

Seçkilər həm də maraqlı tendensiyanı büruzə verdi. Rusiyaya meyl edən namizədlər hiss olunacaq qədər səs qazanmadılar. Bu, o deməkdir ki, Gürcüstanın Qərbə tərəf yönəlməsi artıq birmənalıdır. Seçkinin nəticələri güman ki, Rusiyada da araşdırılacaq. Nəticə isə budur ki, Gürcüstanda xaos yaratmaq üçün Rusiyanın əlində tutarlı vasitələr yoxdur. Belə olan təqdirdə Rusiya nə edəcək? O, daha çox digər iki Cənubi Qafqaz respublikasında - Azərbaycanda və Ermənistanda möhkəmlənməyə çalışacaq. Bəs bu iki respublikanın davranışı necə olacaq?

Nəzərə alaq ki, Gürcüstanın seçimi bu iki respublikanın siyasətinə təsir etmək iqtidarında deyil. Ermənistan Rusiya ilə sıx hərbi ittifaqdadır. Azərbaycana gəldikdə isə həm Rusiyanın mümkün təzyiqləri, həm də daxili siyasi amillər ucbatından bu respublika NATO ilə indikindən sıx əməkdaşlığa can atmayacaq. Müşahidəçilər bunu daha çox Rusiyanın təzyiqləri ilə yozsalar da əslində məsələ daha çox daxili amillərlə bağlıdır. Azərbaycan Avropa Şurasından sonra NATO-nun timsalında ikinci «siyasi islahatlar müəllimi»ni qazanmaq istəmir. Rusiyanın mümkün təzyiqləri ilə bağlı deyilən mülahizələr isə daha çox şişirtmədir. Əgər enerji ehtiyatlarına malik olmayan Gürcüstan Rusiyanın təzyiqlərinə davam gətirə bilirsə Azərbaycan niyə davam gətirə bilməsin? Hazırda Rusiyanın Azərbaycana qarşı təzyiq imkanları daha çox əməkçi miqrantlarla məhdudlaşır. Amma bu məsələdə də Rusiyanın imkanları hüdudsuz deyil. Rusiyanın işçi qüvvəyə ehtiyacı var və üstəlik bu məsələdə bu vaxta qədər tətbiq edilən manеələr ciddi nəticə verməyib.

Buradan belə bir sual meydana çıxır: bir halda ki, xitab qrammatik cəhətdən cümlə ilə bağlıdır, nəyə əsasən demək olar ki, bütün tədqiqatçılar qeydsiz-şərtsiz olaraq xitabı "qrammatik cəhətdən cümlə üzvləri ilə bağlı olmayan sözlər və söz birləşmələri" bölməsində tədqiq edirlər? Yeri gəlmişkən, sintaksisi öyrənənlər arasında baş və ikinci dərəcəli üzvlərə müxtəlif münasibətlər həmişə mövcud olmuş və mövcud olaraq da qalmaqdadır. Qeyd etdiyimiz kimi, xitab istər rus dilçiliyində, istərsə də müasir dilçiliyimizdə sintaksisin tam öyrənilməmiş əsas kateqoriyalarından biridir. Sintaksisə dair yazılmış əsərlərdə xitab tədqiq olunsa da, xitabla bağlı dissertasiyalar yazılsa da, bu əsərlərdə xitabın sintaksis vəzifəsi, ifadə vasitələri, üslubi keyfiyyətlərindən bəhs olunsa da, bu sintaktik kateqoriya ilə əlaqədar mübahisəli məsələlər hələ də qalmaqdadır. Bu da xitabın cümlədəki rolu, onun cümlədəki fikrə münasibəti ilə izah oluna bilər. İlk baxışdan qrammatik cəhətdən cümlə üzvləri ilə bağlanmayan xitabın cümlə ilə bağlılığı necədir?" sualı açıq qalır. Xitabın cümlə ilə qrammatik cəhətdən bağlanmayan digər sintaktik vahidi – ara sözlərdən fərqli tam açılmamışdır.

Xitablar cümlə üzvləri ilə bağlı olmasa da, onların cümlə daxilində ekvivalenti olur, bu da cümlənin xəbəri ilə uzlaşır. Deməli, xitabın cümlə daxilindəki ekvivalenti ikinci şəxsdir. Bu baxımdan aşağıdakı iki cəhəti qeyd etmək yerinə düşər:

I. Xitab olunan şəxs işin icraçısıdır. Belə bir xüsusiyyət özünü ən çox əmr cümlələrində göstərir. *Məsələn:* ***Molla Həmid, onlar gələndə hörmət elə, çadırda əyləşdir, əhvalat xəbər al, soruş ki, nə mətləbə gəliblər?*** *(M.F.Axundov)* ***Səfər, sən gəl get, sonra bir yaxşı şey verərəm, arvadın üçün apararsan.*** *(C.Cabbarlı)*

II. Xitab olunan şəxs işin icraçısı deyildir. *Məsələn:* ***-Yox, Hacının qızı bir iş də var, axı böyük dura-dura kiçiyi ərə vermək yaxşı deyil.*** *(Y.V.Çəmənzəminli)* ***Cənab şair, birfərz ki, bizim hər birimizdə bir təqsir var ki, sənətindən bəhrəyab olmur.*** *(M.F.Axundov)*

Bu cümlələrdə xitab olunan şəxslər işin icraçısı deyildir; burada danışan öz fikrini xitab olunan müəyyən şəxsə bildirir. Bu halda xitab müraciət obyekti olmaqla, cümlənin subyekti ilə üst-üstə düşə də bilər, düşməyə də. Xitabların həm formaca, həm də bəzən işin icraçısı ilə ekvivalent olması onları mübtəda ilə eyniləşdirməyə gətirib çıxarır. Halbuki xitabla mübtəda bir-birindən kəskin şəkildə fərqlənir və bu iki sintaktik kateqoriyanın oxşar və fərqli cəhətlərindən daha geniş bəhs oluna bilər.

Nərmin Məmmədova,
Bakı Dövlət Universiteti
Filologiya fakültəsinin magistantı

Hüquq

Mirzə Rəsul İsmayılzadə Duzal

«KLASSİK» HÜQUQ MƏKTƏBİ VƏ FRANSANIN 1810-cu İL CİNAYƏT MƏCƏLLƏSİNİN ROLU

«Klassik» məktəbin qanunvericilik ideyalarının daha tipik və xarakterik təzahürü Fransanın 1810-cu ildə qəbul edilmiş Cinayət Məcəlləsidir. Bu Məcəllə Napoleonun adı ilə bağlı olan qanunvericilik sisteminin tərkib hissəsi idi. Məlum olduğu kimi, Napoleonun Fransada hakimiyyətdə olduğu dövrdə aşağıdakı mühüm məcəllələr – mülki, ticarət, mülki-prosessual, cinayət-prosessual və cinayət məcəllələri qəbul edildi. Bu məcəllələr məcmu halında XVIII əsrin sonunda qalib gəlmiş burjua inqilabı nəticəsində Fransada hakim olan kapitalist münasibətlərinin bərqərar olmasına, möhkəmlənməsinə və inkişafına kömək etdi. Bu məcəllələrin rolunu qiymətləndirərkən nəzərə almaq lazımdır ki, onlar «boş yerdən» meydana çıxmamış, artıq təşəkkül tapmış sosial münasibətlər əsasında yaradılmışdır. 1848-1849-cu illər burjua-demokratik inqilabı dövründə siyasi məhkəmə proseslərinin birində təqsirləndirilən qismində çıxış edərkən K.Marks Napoleon dövründə qəbul edilmiş məcəllələr haqqında demişdir: «Əlimdə tutduğum bu Napoleon Məcəlləsi müasir burjua cəmiyyətini yaratmamışdır. Əksinə, XVIII əsrdə meydana çıxmış və XIX əsrdə inkişafını davam etdirən burjua cəmiyyəti bu Məcəllədə yalnız özünün hüquqi ifadəsini tapır» *(Маркс К., Энгельс Ф. Соч., 2-е изд., т.6, с.259).*

Napoleon qanunvericilik sistemində mərkəzi yeri 1804-cü ildə qəbul edilmiş Fransa Mülki Məcəlləsi tuturdu, çünki o, burjua cəmiyyəti üçün ən əsas olan özəl kapitalist mülkiyyətlərini tənzimləyirdi. Başlıca məqsədi ilk növbədə şəxsi mülkiyyəti yoxsulların və ümumiyyətlə, mülkiyyətçilərin «müqəddəs» hüquqlarını pozmağa cəhd edən şəxslərin qəsdlərindən qorumaq olan bütün qalan məcəllələr, o cümlədən Cinayət Məcəlləsi də yalnız əlavə rolunu oynamalı idi. Bu barədə həm Cinayət Məcəlləsinin layihəsinin tərtibçiləri, həm də onun müzakirəsində iştirak etmiş Fransa qanunvericilik orqanlarının üzvləri danışırdılar. Cinayət Məcəlləsi layihəsinin Qanunvericilik Korpusunda müzakirəsi zamanı iştirakçılardan birinin Napoleonun Mülki Məcəlləsini nəzərdə tutaraq dedikləri maraqlıdır: «Mülkiyyət öz qiymətli hüququnu Avropanın yarısının məcəlləsinə çevrilən həmin ölməz məcəllədə tapdı, ancaq əgər mülki qanunu pozulmasının qarşısını almağa yaramasa da, hər halda ona görə cəzalandıran cəza qanunu mövcud olmasaydı, mülki qanunun ən birinci və ən güclü sanksiyası olmazdı» (*Французский уголовный кодекс 1810 года. М., Юриздат, 1947, с.62).*

1810-cu il Fransa Cinayət Məcəlləsinin məzmununa nəzər salarkən ilk növbədə onun ikili xarakterini qeyd etmək lazımdır, bu, onun qəbul edildiyi sosial və siyasi şəraitlə, həm də onun tərtibçilərinin qarşılarına qoyduqları məqsədlərlə izah edilir.

Bir tərəfdən 1810-cu il Məcəlləsi 1791-ci il Cinayət Məcəlləsinin və Fransa inqilabının digər qanunvericilik aktlarının cinayət hüququna gətirdiyi bir sıra mütərəqqi müddəaları saxladı. Digər tərəfdən 1810-cu il Məcəlləsi fransız cinayət hüququna burjua qaydalarının möhkəmlənməsinə, yoxsulların vahimələndirilməsinə, kapitalist xüsusi mülkiyyətinin hər vasitə ilə müdafiəsinə yönələn mürtəce müddəalar daxil etdi Müasir fransız hüquqşünasları Stefani və Levasser bu hadisənin səbəblərini izah etməsələr də, onu qeyd edərək yazırlar: «Bu Cinayət Məcəlləsi Bekkarianın ideyalarından çox, utilitarizm doktrinasının əsasını qoymuş ingilis filosofu Bentamın ideyalarından ilham almışdır. Bentam cinayət hüququ ilə yaxından maraqlanmış və «Mülki və cinayət qanunvericiliyi haqqında traktat» əsərini yazmışdır. Bu əsər 1801-ci ildə fransız dilinə tərcümə edilmişdir». *(Pe-*

шетников Ф.М. Уголовное право буржуазных стран. М., Изд-во Университета Дружбы Народов, с. 8).

1810-cu il Cinayət Məcəlləsi 1791-ci il CM-in az əhəmiyyətli bir sıra başqa müddəalarından da istifadə etmişdir. O cümlədən bu, Məcəllənin quruluşuna, onun ümumi və xüsusi hissələrə bölünməsinə, xüsusi hissənin sisteminə, ümumi hissənin əksər institutlarının izahına, məlum dərəcədə cəza sisteminə və s. aiddir.

1810-cu il Cinayət Məcəlləsində 1791-ci il Məcəlləsinin bir sıra mütərəqqi müddəalarının saxlanılması onunla izah olunur ki, inqilab nəticəsində hakimiyyətə gəlmiş fransız burjuaziyası cinayətə görə cəzanı «maarifçi» görünən, əslində onun möhkəm ağalığını və yoxsulların müqavimətinin boğulmasını təmin edən prinsiplər üzərində qurmağı məqsədəuyğun hesab edirdi. Bu zaman burjuaziyanın ayrı-ayrı nümayəndələrinin hərəkəti bütövlükdə burjua sinfinin maraqlarını pozduqda burjuaziya onlara qarşı da cəza tətbiq etməyə hazır idi.

1810-cu il Məcəlləsində cinayətə görə cəzanın yalnız qanuna əsaslanması prinsipinin təsbit edilməsini məhz belə izah etmək lazımdır. Həmin dövrdə öz quruluşunu möhkəmləndirməyə ehtiyacı olan burjuaziya kimliyindən asılı olmayaraq heç kimə, o cümlədən hakimlərə də fransız kapitalistlərinin köklü maraqlarını ifadə edən qanundan geri çəkilməyə imkan verməyi mümkünsüz hesab edirdi. Bununla belə, 1810-cu il Cinayət Məcəlləsində, öz əksini 1791-ci il Cinayət Məcəlləsində tapmış maarifçi-humanitar prinsiplərdən ciddi geriçəkilmələr var idi. Burada ilk növbədə 1810-cu il Məcəlləsinin qanunu poza biləcək şəxslərin vahimələndirilməsinə ümumi istiqaməti qeyd olunmalıdır. 1810-cu il Cinayət Məcəlləsi 30 halda ölüm cəzasını nəzərdə tuturdu. Bu zaman ata qatilliyə görə və ona bərabər tutulan həyata və ya imperatorun şəxsiyyətinə qəsdə görə ölüm cəzasından əvvəl əllər biləkdən kəsilməli idi – bu, yeganə məqsədi vahimələndirmə olan orta əsrlər mərasimi idi.

Ata qatilinin açıq şəkildə edamından qabaq sağ əlinin biləkdən kəsilməsi qaydası 1832-ci ildə ləğv edildi, ancaq 1958-ci ilə qədər Fransa Cinayət Məcəlləsi ata qatilinin ölüm cəzasının icrası üçün xüsusi mərasim nəzərdə tuturdu: məhbus edam yerinə köynəkdə, ayaqyalın, başında qara örtük gətirilməli idi.

Yalnız müəyyən müddətlərə azadlıqdan məhrumetməni nəzərdə tutan 1791-ci il Cinayət Məcəlləsindən fərqli olaraq, 1810-cu il Məcəlləsində 15 halda müddətsiz katorqa hədəsi var idi. 1810-cu il Məcəlləsi cəza kimi məhbusun boynunda xalta rüsvayçılıq sütununa bağlanması hallarını xeyli artırdı. 1791-ci il Cinayət Məcəlləsindən fərqli olaraq o, əlavə cəza kimi damğalanmanı nəzərdə tuturdu: bu cəzaya katorqaya məhkum edilmiş yoxsullar, səfillər, residivistlər və saxtakarlıqda təqsirli olanlar məruz qalırdı. 1832-ci ildə ləğv edilmiş damğalanma aşağıdakı kimi icra edilirdi: açıq meydanda məhkumun sağ çiyninə dəmirdən hazırlanmış hökmə uyğun hərflər möhkəm qızdırılaraq basılırdı, ömürlük katorqaya məhkum edilmiş şəxslərə TR və ya müəyyən müddətə katorqaya məhkum edilmiş şəxslərə T damğası vurulurdu. Əgər cinayətkar saxtakarlığa görə məhkum edilirdisə, onda onun çiyninə əlavə olaraq F hərfi damğalanırdı.

Göründüyü kimi, «maarifçi» fransız burjuaziyası öz əmlakını qorumaq naminə feodal ədliyyəsinin ən pis üsullarına qayıtmağa hazır idi. Napoleon imperiyasının qanunvericilik orqanları həm də əmlakın müsadirə edilməsi qarşısında dayanmadı, burjuaziya bu cəzanı adətən təbii qəbul etmir, çünki bu onun «müqəddəs» əmlakına toxunurdu. 1810-cu il Məcəlləsi əmlak müsadirəsini dövlət cinayətlərində təqsirli olan şəxslər üçün əlavə cəza kimi nəzərdə tuturdu. Bunda burjuaziyanın öz sinfinin ağalığını bütövlükdə təmin etmək naminə varlıların ayrı-ayrı nümayəndələrinin hüquq və maraqlarını məhdudlaşdırmağa hazır olması bir daha təzahür edirdi.

1810-cu il Fransa Cinayət Məcəlləsi 1791-ci il Cinayət Məcəlləsində qəbul edilmiş sanksiyalarını mütləq müəyyən edilməsi sistemindən imtina etdi. 1791-ci il Məcəlləsinin praktiki tətbiqi bu sistemin yararsız olduğunu göstərdi – o, hakimlərin əl-qolunu bağlayır, onların təqsirləndirilənə, özlərinin hüquqi şüur nöqteyi-nəzərindən cinayətkarın təhlükəliliyinə daha çox uyğun gələn cəza təyin etməsinə mane olurdu.

Buna əsaslanaraq 1810-cu il Cinayət Məcəlləsinin əsasına aşağıdakı sistem qoyuldu: ən ağır

cinayətlərə görə sanksiyalar tamamilə dəqiq müəyyənləşdirilmişdi (ölüm cəzası və ya ömürlük katorqa), qalan cinayətlərə görə sanksiyalar nisbi müəyyən idi – məsələn, qanun müəyyən müddətə (5 ildən 20 ilə qədər) katorqa işlərini nəzərdə tutur, yaxud maksimal və ya minimal həbs cəzasını və ya cərimənin miqdarını müəyyən edirdi, həmin hüdudlar daxilində konkret sanksiyanı seçmək hakimə həvalə edilirdi.

Bu zaman məhkəmə qanunda göstərilmiş azadlıqdan məhrumetmənin maksimal və minimal müddətlərindən kənara çıxa bilməzdi, burada yalnız qanunun özünün qəti şəkildə müəyyən etdiyi hallarda istisnalar ola bilərdi. Bununla belə, həm qanunun məhkəmə hakimiyyəti qarşısında birinciliyi, həm də kifayət qədər çevik cəza siyasətinin həyata keçirilməsi təmin olunmuşdu. Bu sistem sonralar bu və ya digər dəyişikliklərlə bir çox digər ölkələrin qanunvericiliyi tərəfindən qəbul edildi.

1810-cu il Cinayət Məcəlləsinin ümumi hissəsində cəza məsələlərinə aşkar şəkildə üstünlük verilmişdir. Həqiqətən ümumi hissənin 74 maddəsindən 20-yə qədərini bilavasitə cinayətlər haqqında təlimlə bağlı məsələlərin şərhinə aid etmək olar. Bunu Məcəllənin birinci kitabının adı da göstərir: «Cinayətlərə görə verilən cəzalar və islah cəzaları və onların nəticələri barədə».

Cinayətlərə münasibətdə cəzaların «birinciliyi» Fransanın 1810-cu il Cinayət Məcəlləsinin cinayətə verdiyi tərifdə də təzahür edir. Məcəllədə cinayətin nə maddi, nə də ümumi formal anlayışı yoxdur, cinayət əməllərinin cəza əlamətinə görə üç yerə bölünməsi ilə kifayətlənilir. İdeyaya görə cinayət anlayışının tərifində və ya cinayətə görə verilən cəzanın vəzifələrinin verilməli olduğu Fransanın 1810-cu il CM-in 1-ci maddəsində deyilirdi:

«Qanunun polis cəzaları ilə cəzalandırdığı cinayət əməli pozuntudur.

Qanunun islah cəzaları ilə cəzalandırdığı cinayət əməli xətadır.

Qanunun əzabverici və ya rüsvayedici cəzalarla cəzalandırdığı cinayət əməli cinayətdir».

Məcəllə polis cəzaları sırasına bir neçə günlüyə həbsi və kiçik məbləğdə cəriməni, islah cəzalarına islah müəssisələrində həbsdə saxlanılmağı, cərimələri və bəzi hüquqlardan müvəqqəti məhrum edilməni aid edirdi. Həmçinin şərti cəzalar adlandırılan əzabverici və rüsvayçı cəzalar sırasına Məcəllə ölüm cəzasını, katorqa işlərini, boynunda xalta rüsvayçılıq sütununa bağlanmanı və s. (cəmi 10 növ) aid edirdi.

Beləliklə, 1810-cu il Cinayət Məcəlləsi cinayəti cəza vasitəsilə müəyyən edir və cinayət əməllərinin ayrı-ayrı kateqoriyalarını, onların törədildiyi hallarda qanunun hədələdiyi cəzaların ağırlığından asılı olaraq təsnif edirdi.

1810-cu il Məcəlləsi cinayətə cəhdə görə cinayət məsuliyyəti məsələsində cinayət hüququnda maarifçi-humanist istiqamətli təlimi ilə müqayisədə bir addım geri çəkildi. Maarifçi-humanist istiqamətli təlimin nümayəndələri (o cümlədən Bekkaria) başa çatmış cinayətlə müqayisədə cinayətə cəhdə görə aşağı məsuliyyət müəyyən etməyi təklif edirdilər. 1810-cu il Məcəlləsi «cinayətə istənilən cəhdi cinayətin özünə bərabər tutmağı» müəyyən edirdi (maddə 2). Ancaq ilkin cinayət fəaliyyətinə görə məsuliyyət barədə Məcəllənin 2-ci maddəsinin qərarı feodal cinayət hüququ ilə müqayisədə irəliyə doğru atılmış ciddi addım idi, çünki o, «zahiri hərəkətlərlə təzahür edir və icranın başlanması ilə müşayiət edilən» cinayətə cəhdə görə məsuliyyəti məhdudlaşdırırdı. Bununla 1810-cu il Cinayət Məcəlləsi cinayət hüququ üçün mütərəqqi olan belə bir prinsipi təsbit etmişdir ki, «cinayətkar əhval-ruhiyyə», «boş niyyət» cinayət məsuliyyəti yarada bilməz. 1810-cu il Cinayət Məcəlləsi qəbul edilənə qədər fransız qanunvericiliyində anlaqsızlığı cinayət məsuliyyətini istisna edən hal kimi müəyyən edən göstəriş yox idi. Yeni Məcəllə çox ciddi olan bu qüsuru aradan qaldırdı. Xüsusilə, 1791-ci il Cinayət Məcəlləsində anlaqlılıq haqqında məsələyə ümumiyyətlə baxılmırdı. 1810-cu il Məcəlləsinin 64-cü maddəsində deyilirdi ki, «əgər əməl törədilən zaman təqsirləndirilən dəli vəziyyətində olarsa, nə cinayət, nə də xəta yoxdur». Bu formulə mükəmməllikdən uzaqdır, çünki onda anlaqsızlığın kriteriyaları təsvir edilməmişdir və hər şey yalnız «dəli» vəziyyətinə müncər edilir, bu anlayış isə müasir elm nöqteyi-nəzərindən anlaqsızlıq hal-

larının heç də hamısını əhatə etmir. Ancaq 1810-cu il Cinayət Məcəlləsində XVIII əsrin mütəfəkkirlərinin və psixiatrlarının ruhi xəstələrin, törətdikləri «cinayətlərə» görə təqib edilməsinə son qoyan mütərəqqi baxışlarının öz əksini tapması çox mühüm haldır. Məsələ ondadır ki, fransız burjuaziyası, (Cinayət Məcəlləsi onun mənafeyinə uyğun tərtib edilmişdi) cinayətə görə cəza verməkdən istifadə etmədən cəmiyyətdən təcrid edilə bilən «dəlilərlə» deyil, mövcud quruluşun əsl düşmənləri ilə mübarizəni qarşısına məqsəd qoymuşdu. «Mütləq anlaqlılıq» yaşı ilk dəfə fransız qanunvericiliyi tərəfindən yalnız 1912-ci ildə müəyyən edilmiş və 13 yaş götürülmüşdü. Müasir cinayət hüququnun ümumi hissəyə aid etdiyi bir çox məsələlər 1810-cu il Məcəlləsində Xüsusi hissədə izah edilirdi. Bu halda 1810-cu il Cinayət Məcəlləsinin tərtibçiləri 1791-ci il Məcəlləsinin mütərəqqi elementlərindən imtina edərək, onun zəif tərəflərini götürdülər. Həmçinin 1810-cu il Məcəlləsində təqsirin ümumi formaları kimi qəsd və ehtiyatsızlığın qanunvericilik anlayışı yox idi. Yalnız qətl barədə maddələrdə Məcəllə sadə qəsddən fərqlənən qəsdqabağı qəsdi «əməlin özünün törədilməsinə qədər şəxsiyyətdə qəsd niyyətinin formalaşması» kimi müəyyən edir (maddə 297), həmçinin ehtiyatsızlığa ümumi anlayış vermədən, onun ayrı-ayrı növlərini (bacarıqsızlıq, düşüncəsizlik, diqqətsizlik, ehtiyatsızlıq və ya qaydalara riayət edilməməsini) təsvir edirdi. Əmrin icrasına və zəruri (qanuni) müdafiəyə cinayət məsuliyyətini istisna edən hal kimi baxılması müddəası da həmçinin 1810-cu il Məcəlləsinin Ümumi hissəsində deyil, Xüsusi hissəsində verilmişdi.

1810-cu il Cinayət Məcəlləsində son zərurət haqqında göstəriş yox idi. Qarşısıalınmaz qüvələrin təsiri dəlilik vəziyyətinə bərabər tutulurdu (maddə 64). Məcəllə onlara həyatdan məhrum etməyə, yaralar və zərbələr vurmağa görə məsuliyyətlə əlaqədə baxırdı. Bütövlükdə 1810-cu il Məcəlləsinin strukturu xeyli dərəcədə 1791-ci il Məcəlləsindən götürülmüşdü. 1810-cu il Məcəlləsinə «İlkin qərarlar» və dörd kitab daxil idi, onlardan ilk ikisi Ümumi hissə məsələlərinə həsr edilmişdi, həcminə görə ən böyük olan üçüncü kitabda müvafiq sanksiyalarla birlikdə cinayətlərin və xətaların tərkiblərinin təsviri verilmişdi, sonuncu olan dördüncü kitabda polis pozuntuları və onlara görə cəzalar göstərilirdi. Göründüyü kimi, Məcəllədə cinayət əməllərinin üçpilləli bölgüsü özünü göstərirdi. Yalnız ən ağır cinayətlərin daxil olduğu 1791-ci il Cinayət Məcəlləsindən fərqli olaraq, 1810-cu il Məcəlləsi ideyaya görə yüngül polis pozuntularına qədər bütün cinayət əməllərini əhatə etməli idi.

1810-cu il Cinayət Məcəlləsinin Xüsusi hissəsinin sistemi haqqında danışarkən ilk növbədə «Cinayətlər, xətalar və onların cəzaları haqqında» adlanan üçüncü kitabın quruluşunu nəzərdə tutmaq lazımdır. Bu kitab iki əsas bölmədən ibarətdir: «İctimai maraqların əleyhinə cinayətlər və xətalar haqqında» və «Fərdi şəxslər əleyhinə cinayətlər və xətalar haqqında». Bu kitabın ikinci bölməsi öz növbəsində iki fəslə bölünür: «Şəxsiyyət əleyhinə cinayətlər və xətalar haqqında» və «Mülkiyyət əleyhinə cinayətlər və xətalar haqqında». Məcəllənin Xüsusi hissəsinin belə quruluşu siyasi və mülki hüquqları və adamların münasibətlərini kəskin şəkildə fərqləndirən «təbii hüquq» ideyalarının, «ictimai müqavilə» nəzəriyyəsinin əks etdirilməsi idi. Əgər bu konsepsiyaların nəzəri cəhətdən zəif olmalarına fikir verməsək, qeyd etmək lazımdır ki, onların cinayət hüququnun Xüsusi hissəsinin sisteminin quruluşuna praktik tətbiqi Məcəlləni kifayət qədər mükəmməl və asan araşdırıla bilən edir.

1810-cu il Məcəlləsinin ayrı-ayrı maddələrinə gəldikdə isə onlar bir qayda olaraq dəqiq və aydın bir dildə formulə edilmişdir, bu da qanunların izahı zamanı meydana çıxan dolaşıqlığı aradan qaldırmalı idi. Göründür, onun müəllifləri hesab edirdilər ki, vahimə yaratmağa yönələn Məcəllə hamı üçün aydın olmalıdır. Ancaq 1810-cu il Məcəlləsində, 1791-ci il Məcəlləsini xatırladan çoxsaylı və həddindən artıq dərəcədə kazuistik formulələr vardır, belə kazuistlik sanksiyaların mütləq müəyyən sistemi ilə izah edilir.

1810-cu il Məcəlləsində belə formuləyə misal göstərək. 257-ci maddənin dispozisiyasında deyilir: «İctimai istifadə və ya yaraşıq üçün nəzərdə tutulmuş və ictimai hakimiyyət tərəfindən və ya onun icazəsi ilə ucaldılmış abidələri, heykəlləri və digər predmetləri dağıdan, uçuran, ey-

bəcər hala salan şəxslər...» Ancaq 1810-cu il Cinayət Məcəlləsinin hazırlandığı dövrün hüquqi texnika səviyyəsini bütövlükdə qiymətləndirməyə cəhd etsək, onda sovet krimiralisti professor MMİsayevin aşağıdakı fikrinə yalnız şərik çıxmaq olar. O yazır ki, «1810-cu ildə qanunvericinin əlindən çıxan Məcəllə özünün zahiri incəliyi ilə adamı heyran qoyur. Məcəllə asan nəzərdən keçirilir, onda cəmi-cümlətanı 484 maddə vardır ki, bunlardan 74 maddə Ümumi hissənin və 410 maddə Xüsusi hissənin payına düşür. Əksər hallarda maddələr həcmlərinə görə böyük deyillər. Fransız vəkilləri yaxşı hüquqşünas olmuşlar və hüquqi texnikanı çox yaxşı mənimsəmişlər» (*Французский уголовный кодекс 1810 года, М., 1947,* с.68 (giriş məqaləsi).

Ancaq Məcəllənin bir sıra zəif yerlərinə diqqət vermək lazımdır. Bunların sırasına ən əvvəl Ümumi və Xüsusi hissələrin institutları arasında dəqiq sərhədin olmamasını aid etmək olar, bunun nəticəsində cinayət hüququnun Ümumi hissəsinin bir sıra məsələləri 1810-cu il Məcəlləsinin Xüsusi hissəsində işıqlandırıldı. Cinayət hüququnun bir çox institutlarının Məcəllədə lazımi şəkildə həllini tapmaması da onun zəif cəhətlərindəndir (qəsd və ehtiyatsızlıq anlayışı, anlaqlılıq kriteriyası, «mütləq anlaqlılıq» yaşı və s.).

Müasirləri tərəfindən çox yüksək qiymətləndirilən 1804-cü il Mülki Məcəlləsindən fərqli olaraq, 1810-cu il Cinayət Məcəlləsi Stefani və Levasseranın sözlərinə görə «özünün böyük qardaşı olan Mülki Məcəlləyə nisbətən az heyranlıq doğururdu» (*Решетников Ф.М. Уголовное право буржуазных стран. М., Изд-во Университета Дружбы Народов, с.16).*

Ancaq o, bir sıra əhəmiyyətli islahatlara məruz qalsa da, əsr yarım keçdikdən sonra indinin özündə də fəaliyyətdədir. Fransa Cinayət Məcəlləsinə edilən ilk ciddi dəyişiklir 1832-ci ildə keçirilmiş islahat oldu. Həmin vaxt onun tərkibindən orta əsr cəza formaları – damğalama, boynunda xalta rüsvayçılıq dirəyinə bağlama, ata qatilinin əlinin biləkdən kəsilməsi çıxarıldı, həmçinin bir çox cinayətlərin həddindən artıq sərt sanksiyaları aşağı salındı. Bunun ardınca 1848-ci ildə siyasi cinayətlərə görə ölüm cəzası ləğv edildi, 1854-cü ildən isə katorqa işləri, «insanı torpağın köməyi ilə və torpağı insanın köməyi ilə yaxşılaşdırmaq üçün», koloniyalarda çəkilməyə başlanıldı, 1863-cü il islahatı nəticəsində bəzi cinayət əməllərinə görə sanksiyalar yenidən aşağı salındı. Fransa cinayət qanunvericiliyinin belə «klassik istiqamətdə» inkişafı 1871-ci ildə kommunarlara divan tutulması ilə sona çatan Paris Kommunasına qədər davam etdi. 1810-cu il Fransa Cinayət Məcəlləsinin sonrakı inkişafı, o cümlədən V Respublika tərəfindən 1958-ci ildə həyata keçirilmiş islahat artıq «klassik» məktəbin ideyalarına deyil, pozitivistlərin ideyalarına, «yeni sosial müdafiə» nəzəriyyəsinin ideyalarına və s. əsaslanırdı.

1810-cu il Fransa Cinayət Məcəlləsinin əhəmiyyəti təkcə onda deyildir ki, o, ən böyük kapitalist dövlətlərindən birinin məcəlləsi olmaqla, cinayət hüququnda «klassik» məktəbin ideyalarını ən qabarıq şəkildə təcəssüm etdirmişdir. Həm də bu Məcəllə Napoleon müharibələri dövründə 1810-cu il Məcəlləsi Fransanın işğal etdiyi ölkələrdə birbaşa və ya dolayı tətbiqini tapmışdır. İlk burjua cinayət məcəlləsi olmaqla, həm də kifayət qədər uğurla tərtib edildiyinə görə bu Məcəllə burjua cinayət hüququnun bütün sonrakı inkişafına, xüsusən Avropada və Latın Amerikasında, böyük təsir göstərmişdir.

Nəhayət, Fransa dünyanın ən böyük kapitalist dövlətlərindən biri olduğundan, onun Cinayət Məcəlləsi də bu ölkənin Asiya, Afrika və Latın Amerikasındakı çoxsaylı müstəmləkələrində tətbiq edilirdi. 1810-cu il Fransa Cinayət Məcəlləsi Asiya və Afrikanın müstəqillik qazanmış dövlətlərinin çoxunda indinin özündə də tətbiq edilir. Təbii ki, yeni cinayət məcəllələrinin qəbul edildiyi keçmiş fransız müstəmləkələrində (məsələn, Malidə) fransız hüququ, o cümlədən 1810-cu il Cinayət Məcəlləsi öz izini qoymaya bilməzdi. 1810-cu il Fransa Cinayət Məcəlləsi təkcə cinayət hüququnun «klassik» məktəbinin «abidəsi» və ya dünyanın bir sıra ölkələrinin qüvvədə olan hüququnun mənbəyi kimi deyil, həm də dünyanın müstəmləkə asılılığından azad olmuş burjua dövlətlərinin və ölkələrinin cinayət hüququnun inkişafına təsir göstərən tarixi sənəd kimi ən ciddi şəkildə öyrənilməyə layiqdir.

КОМПАНИИ НАХОДЯТ ПРЕИМУЩЕСТВА

в соседстве с самыми жесткими конкурентами

(Концентрация бизнеса способствует новаторству и экономическому развитию)

В Силиконовой долине в Калифорнии ходит такая шутка: "Если два человека из разных высокотехнологических компаний вместе идут обедать, к десерту создается третья компания".

Силиконовая долина представляет собой зону концентрации бизнеса – территорию, где по соседству расположены конкурирующие компании одной и той же отрасли (в данном случае – высоких технологий). При этом Силиконовой долине завидуют специалисты в области экономического развития по всем Соединенным Штатам и за их пределами.

История о деловом обеде, во время которого создается новая компания, не такое уж большое преувеличение, считает Сэмюэл Лейкен, директор политических исследований Совета по конкурентоспособности. Концентрация бизнеса, будь то в Силиконовой долине или в странах с развивающейся экономикой, может повышать эффективность и производительность связанных с ними фирм, даже если они являются прямыми конкурентами.

Совместное расположение конкурентов, которое может показаться нелогичным, помогает всей отрасли добиваться успехов, считают многие специалисты по экономическому развитию. Оно стимулирует нововведения в бизнесе и способствует росту заработной платы, отмечает Майкл Портер, эксперт по концентрации бизнеса и профессор Гарвардского университета.

"Прежде существовали границы, превращающиеся в заслоны от нововведений", – говорит Лейкен. Но места скопления конкурентов из любой данной отрасли в итоге помогают компаниям расти быстрее и привлекать более квалифицированных сотрудников, а также стимулировать нововведения в области выпускаемой продукции, утверждают сторонники этого процесса.

Географическая близость помогает компаниям учиться друг у друга ускорять разработку продукции, объединять ресурсы для продвижения своей индустрии на рынок, привлекать общих поставщиков на одну и ту же территорию и обращать внимание должностных лиц правительства на необходимость решения отраслевых проблем."Все дело в критической массе, – отметил Лейкен. – Если достаточное количество компаний нуждается в поставках определенной продукции, они смогут привлечь на территорию больше поставщиков". По его словам, местные органы власти все чаще поощряют подобные альянсы, поскольку подведомственная территория, превращаясь в отраслевой центр, порождает спрос на удобства – кофейни, рестораны и магазины, – которые создают еще больше рабочих мест и увеличивают базу налогообложения.

Кристиан Кетелс из Института стратегии и конкурентоспособности при Гарвардском университете приводит в качестве примера успешной концентрации бизнеса Орегон, где немало фирм, производящих изделия из древесины, спортивную одежду и высокотехнологичную продукцию. Правительство штата сосредоточивает усилия на том, чтобы помогать фирмам, работающим по соседству друг с другом, продавать товары и услуги за пределами штата. Одно из таких складывающихся местных скоплений в городе Портленде состоит из компаний, занимающихся возобновляемыми источниками энергии, и фирм, проектирующих экологически чистые здания. В городе расположено 35 таких сертифи-

цированных зданий – больше, чем в любом другом американском городе.

Компании из Орегона предлагают гелиоэнергетические решения потребителям по всем миру, рассказывает Данкан Уайз, президент Делового совета Орегона. "Формирующаяся технология, связанная с использованием волновой энергии, поддерживается в университете штата Орегон", – сообщил он. Его организация подключила муниципальные колледжи и университеты к удовлетворению потребностей местных компаний, в результате чего в местных колледжах появились новые технические программы.

Нет научных данных, однозначно доказывающих утверждения сторонников концентрации бизнеса о том, что эта стратегия эффективна. Но есть множество признаний, что на практике это действительно так. "Наши скопления однотипных предприятий работают лучше других фирм", – заявил Уайз.

Кетелс также приводит в качестве примера производство медицинских приборов в Массачусетсе, где недавно была создана организация "МассМЕДИК", помогающая всем местным компаниям наращивать продажи и прибыль. В районе Северной Каролины под названием "Исследовательский треугольник", куда входят города Роли, Дарем и Чапел–Хилл, в последние годы процветает скопление компаний, занимающихся средствами связи и высокими технологиями, отметил Кетелс.

Эми Кайтер из бюро экономического развития штата Орегон сообщила, что во всем мире проявляют интерес к концентрации бизнеса. Недавно она проводила конференцию Института конкурентоспособности. В конференции участвовали представители 42 стран, в том числе Доминиканской Республики, Объединенных Арабских Эмиратов, Италии, Пакистана, Мексики и нескольких африканских стран.

В области концентрации бизнеса в Соединенных Штатах происходят, в частности, следующие процессы:

Университеты более активно участвуют в концентрации бизнеса. Технологический институт Иллинойса недавно построил "исследовательский парк", куда входят офисы и лабораторные помещения, которые будут совместно использоваться учеными местных компаний и студентами университета. Кроме общего рабочего пространства в здании находится общая столовая, что способствует неформальному общению.

Центр учебных нововведений при Стэнфордском университете проведет конференцию по "новаторской журналистике", чтобы помочь репортерам научиться освещать нововведения в технологии и бизнесе.

Организации, не входящие в государственную систему экономического развития или в отдельные компании, способствуют концентрации бизнеса. В Огайо консалтинговая группа под названием "Огайо МАГНЕТ" (сеть содействия росту промышленности) оказывает услуги промышленным компаниям на территории, объединяющей 16 округов. МАГНЕТ представляет собой гибрид некоммерческого отделения и консалтинговой компании, работающей с прибылью. Она проводит конкурсы среди компаний на разработку более эффективных практических методов, с единых позиций отстаивает интересы товаропроизводителей в органах власти штата, поддерживает инициативы по привлечению квалифицированных работников для преодоления дефицита рабочей силы на северо-востоке штата Огайо.

"Кулинарный туризм" стал новейшим веянием в концентрации бизнеса, особенно в сельской местности. Идея заключается в том, чтобы привлекать предприятия пищевой промышленности, рестораны и знаменитых поваров в районы, где выращиваются продукты питания и овощи, и тем самым притягивать туристов, которые будут платить за обеды, экскурсии или семинары.

Скопления однотипных предприятий не такое уж новое явление, поясняет Кайтер. "Они возникли еще во времена лондонских гильдий... но они помогают понять, как можно изменить местную экономику. Вы уходите от разовых сделок и привлекаете в свой регион новые компании".

http://usinfo.state.gov/russki/)

Uşaq dünyası

"Xəzər Xəbər" toplusunun məktəblilər üçün əlavəsi



AZADLIĞIMIZI QORUMALIYIQ

20 Yanvar Azərbaycan xalqının hüzn və şərəf günüdür

20 Yanvar Azərbaycan xalqının hüzn və şərəf günüdür. Xalqımız bu faciədə həyatdan getmiş övladlarına matəm saxlamaqla bərabər, eyni zamanda onların şəhidlik zirvəsinə baxaraq başını dik tutmalıdır. Çünki Vətən və torpaq şəhidləri ilə ucalır.

1990-cı ilin 20 Yanvarı Azərbaycanın istiqlaliyyət yolunun ilk şəhidlik zirvəsi idi. Ötən illər ərzində Qanlı Yanvarın tarixi, mənəvi-siyasi və s. aspektləri təhlil edilib, hadisəyə Azərbaycan dövləti tərəfindən hüquqi qiymət verilib.

Təəssüf ki, dünya hələ də 1990-cı il yanvarın 19-dan 20-ə keçən gecə Azərbaycanda, onun paytaxtı Bakıda nələrin baş verdiyindən xeyli dərəcədə səthi informasiyaya malikdir.

...Həmin gün Azərbaycanın o vaxtki rəhbərliyinin istəyi və SSRİ rəhbərliyinin əmri ilə Azərbaycanda kommunist rejimini saxlamaq və milli azadlıq hərəkatını boğmaq məqsədilə Bakıya böyük bir ordu (rəsmi rəqəm 35 min nəfəri göstərir) yeridilmişdi.

Sovet qoşunlarının təcavüzü nəticəsində Bakıda 134 mülki vətəndaş öldürülmüş, 600-dən çox adam yaralanmışdı. Öldürülənlər arasında 5 millətin nümayəndəsi, 20-dən çox qadın və uşaq var idi.

Qara Yanvarın indiyədək özündə saxladığı sirlər çoxdur. 100 cildlik istintaq materialının 69 cildi Bakıdan Moskvaya, keçmiş SSRİ prokurorluğuna aparılıb və geri qaytarılmayıb. Azərbaycan xalqının məruz qaldığı bu təcavüz indiyədək bəşəriyyət əleyhinə cinayət kimi beynəlxalq müstəvidə layiq olduğu qiyməti almayıb. Bu hadisələrə emosiya, kədər, yaxud mübarizlik salnaməsi kimi pafoslu münasibətlə bərabər, bir qədər də soyuqqanlı olub, o hadisələrin gerçək mahiyyətini dünya birliyinin, çeşidli beynəlxalq təşkilatların önünə qoymaq barədə düşünməli, 20 Yanvara beynəlxalq hüquqi qiymətin verilməsinə çalışmalıyıq.

Faciə törədildi, günahsız insanlar şəhid oldu. Biz nə əyildik, nə sındıq. O gün heç kəs başını aşağı salmadı, o gün AZADLIQ səsası göylərə qalxdı. Biz o azadlığı qanımız bahasına əldə etdik...

İndi nəyin bahasına olursa-olsun biz hamımız azadlığımızı qorumalıyıq.

Bu, şəhidlərimizin ruhu qarşısında bizim müqəddəs şərəf borcumuzdur!!!

Fuad İslamlı,
"Dünya" məktəbinin
X sinif şagirdi

ALTINCILAR NƏ DÜŞÜNÜRLƏR?

VI sinif şagirdləri ilə kiçik bir sorğu keçirmək qərarına gəldik. Onlara bu suallarla müraciət etdik:

1. Sənin zənnincə əsl dost necə olmalıdır?

2. Ən sevimli müəllimin kimdir?

3. Keçilən dərslər arasında ən çox sevdiyin fənn hansıdır?

4. Təsəvvür edin ki, Xəzər dənizində "Arzular" gəmisi üzür. Öz arzularınızı yazın və o gəmiyə göndərin. Gəmi lazımi ünvana yetişəndə sizin də arzularınız yerinə yetəcək... Nə arzulayardınız?

Onların həyat, dostluq, insani münasibətlər haqqında özləri qədər maraqlı, qəribə düşüncələri ilə siz də tanış olun...



İsmayıl Nagıyevin fikirləri:

1. Mənim çoxlu dostum var. Amma mən dostluğu bacarmıram. Çünki dostum mənə sirr açanda onu saxlaya bilmirəm... Mənim dostlarım vəfalıdır.

2. Mənim fikrimcə hər bir şagird öz müəllimlərini çox istəyir. Mən də həmçinin...

3. Məktəbimizdə keçilən dərslər arasında rus dili, ingilis dili, Azərbaycan dili, riyaziyyat, biologiya fənlərindən xoşum gəlir. Çünki bu dərslərin hamısı mənim gələcək həyatımda böyük rol oynayacaq.

4. Mən belə bir halı təsəvvür edə bilmirəm. Çünki mənim arzularımı Allah yerinə yetirə bilər. Həm də mənim elə arzularım var ki, onu bu "Arzular" gəmisi oraya çatdıra bilməz.

Turan Mahmudzadənin fikirləri:

1. Mənim zənnimcə əsl dost dostluğu bacarandır, dostunu darda qoymayan, dostuna kömək edəndir. Mənim əsl dostlarım sinif yoldaşlarım Bəybala və Əhməddir. Çünki onlar məni heç vaxt darda qoymurlar...

2. Mənim müəllimlərim haqqında heç bir fikrim yoxdur. Çünki müəllimin yaxşısı- pisi yoxdur. Hər müəllim bir-birindən keçdiyi fənlə fərqlənir...

3. Keçilən fənlər arasında sevdiyim fənn çoxdur. Ədəbiyyat dərsinin özü yaxşıdır, lakin inşası pisdir...

4. Arzum əlaçı olmaqdır və mən bunu qarşıma məqsəd qoymuşam...

Aytəkin Seyidovanın fikirləri:

1. Düşünürəm ki, əsl dost insanın çətin günündə yanında olmalı, xoşbəxt günündə sevinməlidir. Uşaqlıqdan özünə dost tapmayan böyüyəndə də tapmaz. Mənim dostlarım yoxdur. Amma çox istərdim ki, olsun. Bəlkə də var, mən hələ qərar verə bilmirəm...

2. Mənim fikrimcə, müəllimlərimiz bizə hirslənsələr də düzgün edirlər. Çünki onlar bizim bilik əldə etməyimizi istəyirlər. Mənim bəzi müəllimlərimdən xoşum gəlmir. Çünki onlar həmişə mənim dərsə olan marağımı söndürürlər. Yəni həmişə mənə pis qiymət verirlər...

3. Belə deyim ki, xoşuma gəlməyən fənn

yoxdur. Amma çətinlik çəkdiyim fənlər var; biologiya, ingilis dili, coğrafiya və tarix. Ən çox sevdiyim fənlər isə biologiya, ədəbiyyat və Azərbaycan dilidir. Çünki bu dərslər maraqlı keçir...

4. Arzusuz insan yaşaya bilməz. Arzum çoxdur... Mənim bir neçə arzum var ki, 2-3 ildir arzulayıram, amma yerinə yetmir. O da əlaçı olmaqdır.

Dilbərxanım Hüseynlinin fikirləri:

1. Təbii ki, əsl dost mənə sadiq olmalıdır və mən ona ürəyimi açmalı, hər şeyi utanmadan ona deyə bilməliyəm. Dost əslində qız da ola bilər, oğlan da. Mənə elə gəlir ki, oğlanlar dostluqda daha möhkəmdirlər...

4. Mənum də arzularım sonsuzdur. İstərdim ki, hamısı yerinə yetsin...

Pərvin Əliyevanın fikirləri:

1. Mənim fikrimcə əsl dost sirr saxlamağı, dar gündə dosta sadiq olmağı bacarmalıdır. Mənim dostum yoxdur. Çünki mən özüm dostluğu bacarmıram. Nə sirr saxlaya bilirəm, nə də...

2. İlk növbədə mən sinif rəhbərimdən söhbət açmaq istərdim. Müəllimlər içindən ən çox sevdiyim müəllimə Nigar müəllimədir. Biologiya müəllimimi də sevirəm...

3. Düzünü deyim, mən dərs oxumağı çox da sevmirəm. Yəni tənbələm...

4. Ən yaxşısı bu arzuları deməyim, sirr kimi qalsın... Çünki arzularım çox, lap çoxdur... Qoy bu "Arzular" gəmisi yola düşüb başqa yeniyetmələrin də arzularını götürsün....

Fəridə Məmmədovanın fikirləri:

1. Əsl dostu tapmaq çox çətindir. Dostlarım var, onlardan bir neçəsi mənə daha yaxındır. Məncə, mən dostluğu bacarıram. Bir atalar sözü var: "Dost dar gündə tanınar." Çox düzgün fikirdir...

2. Mənim müəllimlərim çox mehribandırlar. Nədənsə qadın müəllimlərimi daha çox istəyirəm. Bir çox müəllimlərim var ki, mən dara düşəndə, problemim olanda əhvalımdan başa düşürlər. Demək istəyirəm ki, müəllimələrim çox düşüncəli və həssasdırlar...

3. Bütün fənləri xoşlayıram. Müəllimlərdən də çox şey asılıdır. Müəllim dərsi adama elə başa salmalıdır ki, insanda bu fənnə qarşı sevgi oyansın. Bizim müəllimlərimiz belədir!

Əhməd Namazlının fikirləri:

1. Turan, Bəybala, İsmayıl, Hikmət və Rac. Bəli, mən dostluğu bacarıram. İncisəm, 10 dəqiqədən sonra barışıram...

2. Mənim müəllimlərim yaxşı müəllimlərdir. Amma onların qışqırmaqları olmasa, daha yaxşı olar.

3. Riyaziyyat çox maraqlı fəndir.

4. "Arzular" gəmisinə belə bir məktub yazardım: "Salam. Mən gələcəkdəki Əhmədəm. Mən memaram. Çox böyük işlər görürəm..." Və s...

Əsgər Əsgərovun fikirləri:

1. Bəli, dostlarım var. Dost olan insanlarla təbii ki, dostluq da etməlisən.

2. Bizə dərs keçən müəllimlərin hamısı savadlı və ağıllıdır.

4. Mənim arzularım çoxdur. Arzularımdan biri də oxuyub savadlı olmaqdır.

Fatimə Mirzəyevanın fikirləri:

1. İnsanın bir dostu olsun, amma o, dostluğu bacarsın. Mənim 3 dostum var. Birinci dostum mənim anamdır. Digər dostlarım isə sinif yoldaşlarım Sevinc və Fəridədir. Amma bu dostlarım arasında hər sirrimi paylaşdığım anamdır.

2. "Müəllim" sözünü dedikdə insanın gözünün qarşısına böyük bir şəxsiyyət gəlir.. Müəllimlərimi çox sevirəm.

4. "Arzular" gəmisindən birinci istəyərdim ki, valideynlərimi mənim başımın üstündən əskik eləməsin. İkincisi, istəyirdim ki, böyüyəndə elmlər doktoru olum. Ən azı 5 ölkədə tanınım: İtaliya, Türkiyə, Fransa, İngiltərə və vətənim Azərbaycanda!..

Sorğunu apardı:
Mədinə Rzayeva

Çərşənbə bayatıları

Mən aşiqəm ayazdı,
Qış dərdlidi, nasazdı.
Onu bu dərdə salan
Qarşıdan gələn yazdı.

Dəyirmanda dən oldu,
Kef-damağı şən oldu.
Novruz bayramı gəldi,
Gecə-gündüz tən oldu.

Bu şeirdi, qəzəldi;
Solub düşən xəzəldi.
Çərşənbələrin ilki
Müjdəçidi, əzəldi.

Çay daşıb sel gəlibdi,
Yığışıb el gəlibdi.
Sudan, torpaqdan, oddan
Əvvəlcə yel gəlibdi.

Pərdə aldım tül oldu,
Taxılım sünbül oldu.
İkinci çərşənbənin
Eldə adı "Kül" oldu.

Gün adı Qodu oldu,
Bir adı Dodu oldu,
Novruzda çərşənbənin
Tonqalı, odu oldu.

Əzizim, bülbüləm mən,
Boy atmış sünbüləm mən.
Çərşənbələr içində
Üçüncüyəm, "Gül"əm mən.

Beldən açdım qəməni,
Suladım bağ-çəməni
Novruzun nişanəsi
Səmənidi, səməni.

Sürü deyil, naxırdı,
Qazan dibi paxırdı.
Sonuncu çərşənbənin
Öz adı "İlaxır"dı.

Varı qoyun-quzudu,
Çörəyidi, duzudu.
Təbiətin bayramı
Bahar, yaz Novruzudu.

Düzüb-qoşanı:
Bəhlul Abdulla

KHAZAR VIEW

XƏZƏR XƏBƏR

Öz ciddi məzmunu və rəngarəngliyi ilə seçilən
"Xəzər Xəbər" toplusu yenə sizin görüşünüzə gəlib.
"Xəzər Xəbər"də Azərbaycan, rus, ingilis,
türk və başqa dillərdə dərc olunan maraqlı xəbərlər,
ali və orta təhsil haqqında yeniliklər,
poeziya və ədəbiyyat səhifələri, məzəli əhvalatlar,
elmi əsərlər, siyasətə, mədəniyyətə, idmana aid yazılar, qəribə
sevgi macəraları, uşaq yaradıcılığı, maraqlı yarışlar -
müsabiqələr və s. könlünüzcə olacaq.
"Xəzər Xəbər" gənclərin və oxuyan,
düşünən hər kəsin dərgisidir.
"Xəzər Xəbər"i İNTERNET vasitəsilə dünyanın
hər yerində oxuyurlar.
"Xəzər Xəbər"i siz də oxuyun!
"Xəzər Xəbər"ə siz də yazın!
"Xəzər Xəbər"i şəhərimizdəki qəzet-jurnal
köşklərindən ala bilərsiniz.
"Xəzər Xəbər" ayda iki dəfə çıxır.

Ünvan: Bakı şəhəri,
Məhsəti küçəsi, 11.
Əlaqə telefonları: 421-79-16
421-10-93.
E-mail: xazarxabar@khazar.org